

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

01 iyul 2026-cı il, çərşənbə
№ 112 (7179)
Qiyməti 60 qəpik


## Müasir iqtisadi quruculuğun yeni modeli



Bax səh. 2

## Türk dünyasının ortaq məsuliyyəti

Bax səh. 4

## ABŞ konqresmeni: Azərbaycan etibarlı tərəfdaşdır

Bu yaxınlarda Prezident İlham Əliyevlə görüşümüz oldu. Azərbaycandan qayıtdıqdan sonra bir daha əmin oldum ki, ABŞ etibarlı tərəfdaşlarla fəal əməkdaşlıq etdiyi zaman onun beynəlxalq nüfuzu daha da güclənir. AZƏRTAC xəbər verir ki, bu fikirləri ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeh "Newsmax"da dərc olunan məqaləsində yazıb. Arizona ştatını təmsil edən konqresmen bildirib ki, bu səfər mühüm həqiqəti bir daha təsdiqləyib: "Amerikanın müttəfiqləri ABŞ-ın liderliyini gözləyirlər".

A. Hamadeh qeyd edib ki, Azərbaycan Vaşinqtonun gündəmində daim əsas mövzulardan biri olmasa da, dünyanın ən mühüm strateji məkanlarından birində yerləşir. "Avropa ilə Asiyanın qovuşuğunda, həmçinin Rusiya və İranla həmsərhəd olan Azərbaycan mühüm enerji istehsalçısı, nəqliyyat qovşağı və etibarlı təhlükəsizlik tərəfdaşıdır. Ölkə Avropanın enerji müstəqilliyinin...

Bax səh. 2




Bax səh. 3

## YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ICAPP Daimi Komitəsinin xüsusi sessiyasında çıxış edib

## Bakı Təşəbbüs Qrupu Kanakinin müstəqillik tərəfdarlarını təbrik edib

Bakı Təşəbbüs Qrupu Kanaki-Yeni Kaledoniyanın müstəqillik tərəfdarı qüvvələrini iyunun 28-də keçirilmiş əyalət seçkilərində qazandıqları nəticələr münasibətilə təbrik edib. Təbrik Bakı Təşəbbüs Qrupunun Kanaki-Yeni Kaledoniyanın müstəqillik tərəfdarı qüvvələrinə dəstək bəyanatında yer alıb. Bəyanatda bildirilib ki, rəsmi nəticələr mövcud siyasi reallığı aydın şəkildə əks etdirir: müstəqillik tərəfdarı olan siyasi qüvvələr arxipelaqın mühafizəkar və loyalist qüvvələri üzərində həm strateji, həm də demokratik baxımdan mühüm qələbə qazanıb. "Bu seçkilər 2024-cü ildə baş vermiş gərginliklərin təsiri, ərazinin gələcək idarəetmə statusu ətrafında aparılan müzakirələr, Fransa hökumətinin propaqandası, yerli müstəmləkəçi sağ qüvvələrin təzyiqləri və seçici korpusunun süni genişləndirilməsi ilə bağlı hökumətin birtərəfli qərarları fonunda olduqca mürəkkəb...

Bax səh. 3

## İkili standartların kölgəsinə sığınanlar...

Bax səh. 5

## Korsikaya muxtariyyət verilir

Bax səh. 4

## Milli Məclisdə 14 məsələ müzakirə edilib

Bax səh. 5

## Kənd təsərrüfatında yeni dövr!

Bax səh. 6



## Avropa dəhşətli istilərin cəngində

Bax səh. 6

# Müasir iqtisadi quruculuğun yeni modeli

## Mehriban Əliyeva: “Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf sahəsində regionun liderinə çevirməkdir”

Azərbaycan rəqəmsal inkişafın yeni mərhələsinə daxil olub. Yeni innovasiya cəmiyyətində öz layiqli yerini tutmaq üçün ölkəmiz mühüm dövlət konseptini - “Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya”nı təsdiq edib və sənədin icrası istiqamətində çoxistiqamətli tədbirlər həyata keçirilməkdədir. Strategiya rəqəmsal transformasiyanın strateji əhəmiyyətini nəzərə alaraq dövlət idarəetməsi, infrastruktur, innovasiya ekosistemi və kibertəhlükəsizlik sahələrində prioritet tədbirlər müəyyən edir.

İyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasında vurğulandığı kimi qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən Yol xəritəsi müəyyən olunub və yeni yaradılan Şuranın əsas vəzifəsi bu istiqamətdə əlaqələndirici rol oynamaqdır. Şura müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir. “Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda, ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır”.

**“Hökumət buludu”, “SİMA”, “ASAN xidmət”...**

Qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün Azərbaycanda güclü rəqəmsal arxitektura mövcuddur. Son illər ərzində “Elektron hökumət”in formalaşması, dövlət orqanlarının informasiya sistemləri arasında xüsusi infrastruktur vasitəsilə informasiya mübadiləsinin aparılması, “Elektron hökumət”in fəaliyyəti üçün vacib əhəmiyyət kəsb edən dövlət informasiya sistemləri və ehtiyatlarının yaradılması istiqamətində mühüm işlər görülüb, müasir informasiya-kommunikasiya texnologiyalarının, telekommunikasiya qurğularının və innovasiyaların geniş tətbiqi nəticəsində qabaqcıl texnoloji infrastruktur qurulub. “Mygov” platformasının xidmət dairəsinin genişləndirilir, son üç ayda istifadəçilərin sayının 2,7 milyondan 3,5 milyona çatdırılıb.

Dövlət idarəçiliyində rəqəmsallaşmanın genişləndirilməsi məqsədilə “Hökumət buludu” yaradılıb, dövlət informasiya sistemlərinin və elektron xidmətlərin vahid platforma üzərindən inteqrasiyası təmin edilib. Bu yanaşma dövlət idarəçiliyində xərclərin azaldılmasına, xidmətlərin optimallaşdırılmasına və dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsinə şərait yaradıb. Ölkənin data mərkəzi, yeni “dövlət cloudu” (“Hökumət Buludu”) tam şəkildə qurulub. Ehtiyat və əsas olmaqla Bakı və Yevlax şəhərlərində biz prosesə başladıqda təxminən 50 dövlət müəssisəsi burada öz rəqəmsal ehtiyatlarını yerləşdirirdisə, artıq bu gün bu rəqəm 270-ə çatdırılıb. “SİMA” Biometrik İmzanın təqdim edilməsi ilə 4 milyon istifadəçi, nadir istifadəçi artıq son üç il ərzində bu imzadan istifadə edir. “SİMA”nın təqdim edilməsi dövlət xidmətləri ilə yanaşı, özəl şirkətlərin, xüsusilə də bankların işini bir xeyli asanlaşdırıb.

Hazırda “ASAN xidmət” mərkəzlərində vətəndaşlara, biznes subyektlərinə və əcnəbilərə təxminən 400-ə yaxın xidmət göstərilir. Xidmətlərin sistemləşdirilməsi və təkrarlığın qarşısını almaq məqsədilə yaradılmış “Dövlət Xidmətlərinin Elektron Reyestri” portalında 945 dövlət xidməti rəqəmsal olaraq təqdim edilərək istifadəyə verilib..

Sektorlar üzrə rəqəmsallaşma istiqamətində də mühüm nəticələr əldə edilmişdir. Maliyyə sektorunda 30-dan çox “FinTech” subyekti fəaliyyət göstərməkdədir və bu, ölkədə nağdsız ödənişlərin payının sürətlə artmasına təkan verib. Kənd təsərrüfatında “Elektron Kənd Təsərrüfatı” İnformasiya Sistemi üzərindən 600 mindən çox fermer subsidiyalardan və digər xidmətlərdən rəqəmsal qaydada yararlanır. Səhiyyə sahəsində rəqəmsal həllərin tətbiqi ilə xidmətlərin keyfiyyəti və əlçatanlığı artırılır. Təhsil sistemində rəqəmsal təhsil modelləri formalaşdırılıb, ali təhsil müəssisələri nəzdində rəqəmsal iqtisadiyyat, innovasiya və tədqiqat mərkəzləri yaradılıb. Mülkiyyət sahəsində isə patent və əmtəə nişanlarının rəqəmsal qeydiyyatı üçün “Patentlər, Əmtəə Nişanlarına Açıq Hədəf” sistemi istifadəyə verilib.

**Coğrafi vəziyyətimiz texnoloji tranzitə keçiddə üstünlüyü təmin edir**

Azərbaycan neft-qaz, bağlantılar sahələrində böyük təcrübəsindən istifadə edərək beynəlxalq şirkətlərlə olan əlaqələrin səmtini indi yeni texnoloji cəmiyyət quruculuğuna yönəldir, sərmayə tərəfdaşlıqları qurur. Ötən 20 ildə 350 milyard dollardan çox sərmayə qoyuluşuna nail olan ölkəmiz həm yerli, həm xarici sərmayələrin qorunması ilə sağlam mühit formalaşdırıb və amil qeyri-neft investisiyaları üçün daha geniş zəmin yaradır. Müşavirədə bəyan edildiyi kimi, bir çox ölkələrlə icra edilmiş nəhəng layihələrin davamı indi bilik, bacarıq, texniki keyfiyyətlər sahələrini əhatə edir və geniş beynəlxalq əlaqələrin qurulması nəzərdə tutulur. Bu sərmayə əməkdaşlığı nəqliyyat, energetika dəhlizləri fonunda regional fiber-optik dəhlizlərin yaradılmasını təmin edir.

Eyni zamanda, ölkəmizin coğrafi vəziyyətinin əlverişliliyi də rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində töhfəverici rol oynayır. Ölkəmizin Asiya ilə Avropa arasında yerləşməyi, Şimal-Cənub dəhlizi üzərində qərar tutması və yaradılmış logistika infrastrukturu texnoloji tranzitə keçiddə üstünlüyü təmin edir.

**“Yaşıl güclər” texnoloji inkişafın öncül sahəsinə çevrilir**

Digər üstünlük ənənəvi enerjidən təmiz enerjiyə keçid üçün resurslar zənginliyidir. Azərbaycan son illər ərzində aparılan işlər nəticəsində öz enerji generasiya gücünü böyük dərəcədə artıra bilib və 10 min meqavata bərabər gücə malikdir. Yeni dövrdə isə elektrik stansiyalarının hidro, günəş, külək və digər bərpaolunan enerjiyə əsaslanması nəzərdə tutulur. Yerləşdiyimiz bölgə zəngin alternativ enerji mənbələrinə malik olmaqla, generasiya gücümüzü artıracaq. Bu isə xarici tərəfdaşlarla “yaşıl enerji” kabellərinin çəkilişi üçün güclü motivasiyalar deməkdir. Məlumdur ki, Azərbaycan hökumətinin “yaşıl enerji” sektorunda həyata keçirdiyi strateginanın əsas xətti yerli “yaşıl güclərin” istehsalı və emalına xarici investorların cəlb edilməsidir. Bu istiqamətdə müəyyən edilmiş siyasət öz uğurlu nəticələrini göstərməkdədir. Son 3 ildə Azərbaycan Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, Səudiyyə Ərəbistanının “ACWA Power”, Böyük Britaniyanın “bp”, Avstraliyanın “Fortescue Future Industries”, Yaponiyanın “TEPSCO”, İtaliyanın “Maire Tecnimont”, Çinin “China Gezhouba Group Overseas Investment”, Fransanın “Total Energies” və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalayıb.



Regional layihələr kontekstində Azərbaycanın Xəzər dənizi və Mərkəzi Asiyanın bərpaolunan enerji potensialının şaxələndirilməsi və Türkiyə və Avropa bazarlarına nəqli istiqamətində marşrutların yaradılması istiqamətində həyata keçirdiyi layihələr mühüm yer tutur. Bu istiqamətdə ötən ilin diqqətçəkən hadisələrindən biri də Budapeştdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında Yaşıl Enerji Dəhlizi üzrə Birgə Məktubun imzalanıb. Bu, Xəzər dənizi regionu ilə birləşdirəcək qlobal layihənin - “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi”nin 3-4 il ərzində tamamlanmasını təmin edəcək.

**“Yeni Nəsil Texnologiyalar Mərkəzi” yaradılacaq**

Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması məqsədilə ən qabaqcıl rəqəmsal şirkətlərlə təcrübə mübadiləsi həyata keçirilir, rəqəmsal sənayeyə sərmayələr yatırılır. Bu prosesdə daha böyük nailiyyətlər əldə etmək üçün dövlət-özəl-elm üçbucağının qurulması olduqca vacibdir. Xüsusilə də, biznes cəmiyyəti bu proseslərin hərəkətverici qüvvəsi olmalıdır.

Rəqəmsal iqtisadiyyatın inkişafına dair strategiya sənədində də əks olunduğu kimi bu prosesdə elm və iqtisadi blok arasında koordinasiyalı fəaliyyətin gücləndirilməsi nəzərdə tutulur. Bu məqsədlə ali təhsil müəssisələrində rəqəmsal bacarıqlara və qlobal səviyyədə tanınan rəqəmsal yönümlü sertifikatlaşdırma standartlarına əsaslanan təhsil proqramlarının hazırlanması, İKT üzrə karyera quran kadrları həvəsləndirmək üçün illik İKT təqaüd proqramlarının təsis edilməsi, rəqəmsallaşma istiqaməti üzrə elmi tədqiqat işlərinin doktorantura səviyyəsində dəstəklənməsi üçün əhatəli tədbirlər həyata keçiriləcək. “Yeni Nəsil Texnologiyalar Mərkəzi” və “Rəqəmsal həllər və xidmətlər platforması” yaradılacaq, “Rəqəmsal İqtisadiyyatın İnkişafına Dəstək Proqramı” hazırlanacaq.

**“Rəqəmsal Əkiz” modelləri tətbiq olunacaq**

Biznesin rəqəmsal iqtisadiyyatda fəal rolunun artırılması üçün kiçik və orta sahibkarlıq subyektlərinin rəqəmsal transformasiyasının dəstəklənməsi, onlara maliyyə dəstəyi mexanizmlərinin təqdim olunması və xidmətlərin mərkəzləşdirilməsi məqsədilə “KOB evləri” genişləndiriləcək, rəqəmsal bazarlara çıxış əldə etmiş KOB-ların sayı 200-ə çatdırılacaq. Startapların və tədqiqat mərkəzlərinin səmaye ilə əlaqələndirilməsi, onların real bazar təcrübəsinə, resurslara və mütəxəssis dəstəyinə əlçatanlığını təmin edən mexanizmlərin və rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşmasına dəstək məqsədilə vahid internet resursunun yaradılması nəzərdə tutulur.

Motivasiya tədbirləri çərçivəsində rəqəmsal startapların sayı 250-yə, rəqəmsal transformasiya proqramlarında iştirak edən müəssisələrin sayı 300-ə çatdırılacaq. Bölgələrdə və əsas iqtisadi əməliyyatlarda “Rəqəmsal Əkiz” modellərinin tətbiqi, işğaldan azad edilmiş ərazilərdə və Naxçıvanda müəssisələr üçün rəqəmsal çərçivələr infrastrukturu qurulacaq.

Azərbaycan Dayanıqlılıq Klasterinin yaradılmasına başlanılıb. Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzi, Milli Kiber İnsidentlərə Qarşı Mübarizə Mərkəzi və Rəqəmsal Təhqiqat Mərkəzinin yaradılması, həmçinin dövlət və özəl sektor arasında operativ məlumat mübadiləsini təmin edəcək vahid kibertəhlükəsizlik platformasının qurulması istiqamətində işlər davam etdirilir. Həmçinin İnnovativ layihələrə ixtisaslı kadrların cəlbini asanlaşdırmaq məqsədilə “Rəqəmsal Səyyah” (digital nomad) və “Rəqəmsal İstedad” vizaları tətbiq ediləcək. Xarici təcrübəli mütəxəssislər və onların ailə üzvləri üçün miqrasiya prosedurları sadələşdiriləcək. Ali təhsil müəssisələri və müəssisələr arasında elmi-tədqiqat əməkdaşlığı gücləndiriləcək, texnoloji layihələrə qrant dəstəyi artırılacaq. Xarici İKT şirkətləri və azərbaycanlı diaspora ölkəyə cəlb olunacaq, startap ekosisteminə sərmayə qoyuluşunu həyata keçirən yeni “Fondlar Fondu” yaradılacaq.

**Süni intellekt texnologiyalarının tətbiqi**

Süni intellekt (Sİ) sahəsində fəaliyyətin gücləndirilməsi üçün infrastrukturun və insan resurslarının inkişafı nəzərdə tutulur. Məqsəd Sİ-nin bütün sahələrdə (təhsil, səhiyyə, nəqliyyat və s.) tətbiqini genişləndirməkdir. Sİ layihələrinə dövlət investisiyasının stimullaşdırılması üçün vergi, gömrük və sosial sığorta güzəştləri tətbiq olunacaq. Bununla yanaşı, yüksək hesablama güclərinə malik superkompüter mərkəzlərinin yaradılması nəzərdə tutulur (məsələn, milli GPU əsaslı Mərkəz). Dövlət vəsaiti ilə bu infrastruktur təmin ediləcək, startaplar və tədqiqatçılar üçün istifadəyə kvota ayrılacaq.

Rəqəmsal İnkişaf Şurasının Sədri Mehriban Əliyevanın bəyan etdiyi kimi, “Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik”.

Beləliklə, Rəqəmsal İnkişaf Şurası rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi istiqamətində hədəf prinsiplərinə çatmaqda mühüm rol oynayacaq. Ölkəmizin qlobal reytinqlərdə mövqeyi yaxşılaşdırılacaq, beynəlxalq indekslərdə daha yüksək nəticələr əldə olunacaq.

***E.CƏFƏRLİ***

## Prezident anlaşma memorandumunu təsdiqlədi

Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Esvatini Krallığının İnformasiya, Kommunikasiyalar və Texnologiya Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl mexanizminin yaradılması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu” təsdiq edilib. Fərmana əsasən, 2026-cı il mayın 19-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Esvatini Krallığının İnformasiya, Kommunikasiyalar və Texnologiya Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl mexanizminin yaradılması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu” təsdiq edilib.

## Korrupsiya barədə məlumat verən şəxsə təzyiq qadağan edilib

Korrupsiya ilə əlaqədar hüquqpozmalar haqda məlumat verən şəxsə və ya onun yaxın qohumuna hədə-qorxu gəlmək, onları təzyiqlərə məruz qoymaq, maddi və ya mənəvi ziyan vurmaq, təhqir və təhdid etmək, şərəf və ya ləyaqətini alçaltmaq qadağan edilib. Bununla bağlı Prezident İlham Əliyev “Korrupsiyaya qarşı mübarizə haqqında” qanuna dəyişiklikləri təsdiqləyib. Belə ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən işçiyə belə məlumat verdiyinə görə birbaşa və ya dolayı yolla qisas almaq məqsədilə tənbeh tətbiq etmə, əmək müqaviləsinə xitam vermə, vəzifədən azad etmə, başqa işə keçirmə, əməkhaqqından qanunsuz tutulmalar aparma, vəzifədə irəli çəkilməyə və ya həvəsləndirməyə aktiv və ya passiv formada maneçilik törətmə, mənfi cəhətdən xarakterizə etmə və digər bu cür tədbirlər tətbiq edilə bilməz.Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs ona qisas almaq məqsədilə hər hansı tədbirlərin tətbiqinə dair dəlillər irəli sürdükdə həmin dəlillərin təkzib edilməsi işəgötürənin üzərinə düşəcək.

## DTX-yə yeni səlahiyyət verildi

Prezident İlham Əliyev “Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli fərmanında dəyişikliklər edib. Dəyişikliklərə əsasən, Azərbaycanın Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi tərəfindən mühafizə olunan şəxslərin və qorunan strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirəcək.

# ABŞ konqresmeni: Azərbaycan etibarlı tərəfdaşdır

Bu yaxınlarda Prezident İlham Əliyevlə görüşümüz oldu. Azərbaycandan qayıtdıqdan sonra bir daha əmin oldum ki, ABŞ etibarlı tərəfdaşlarla fəal əməkdaşlıq etdiyi zaman onun beynəlxalq nüfuzu daha da güclənir. AZƏRTAC xəbər verir ki, bu fikirləri ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeh “Newsmax”da dərc olunan məqaləsində yazıb. Arizona ştatını təmsil edən konqresmen bildirib ki, bu səfər mühüm həqiqəti bir daha təsdiqləyib: “Amerikanın müttəfiqləri ABŞ-ın liderliyini gözləyirlər”.

A. Hamadeh qeyd edib ki, Azərbaycan Vaşinqtonun gündəmində daim əsas mövzulardan biri olmasa da, dünyanın ən mühüm strateji məkanlarından birində yerləşir. “Avropa ilə Asiyanın qovuşuğunda, həmçinin Rusiya və İranla həmsərhəd olan Azərbaycan mühüm enerji istehsalçısı, nəqliyyat qovşağı və etibarlı təhlükəsizlik tərəfdaşıdır. Ölkə Avropanın enerji müstəqilliyinin möhkəmləndirilməsində, ticarət



dəhlizlərinin genişləndirilməsində və mürəkkəb geosiyasi şəraitdə regional sabitliyin təmin olunmasında getdikcə daha mühüm rol oynayır”, - deyə Hamadeh vurğulayıb.

Konqresmen qeyd edib ki, Prezident Donald Trampın rəhbərliyi dövründə Ermənistan və Azərbaycan davamlı və uzunmüddətli sülhə nail olmaq istiqamətində əhəmiyyətli irəliləyiş əldə ediblər. Bu tarixi irəliləyiş iqtisadi artım, regional sabitlik və uzunmüddətli rifah üçün yeni imkanlar yaradır. Lakin bu imkanlar yalnız sülh şəraitində tam reallaşa bilər.

“Ermənistan və Azərbaycan arasında əldə olunmuş tarixi sülh sazişi uğur qazanması üçün davamlı beynəlxalq diqqət və dəstək tələb edən siyasi çərçivə formalaşdırır. Belə həlledici məqamda ABŞ prosesdən kənarda qala bilməz. Amerikanın maraqları etibarlı tərəfdaşların uğur qazandığı və sülhün ABŞ-nin davamlı liderliyi sayəsində möhkəmləndiyi şəraitdə daha etibarlı şəkildə təmin olunur”, - deyə Abraham Hamadeh məqaləsində qeyd edib.

# Leyla Əliyevanın təşəbbüsü ilə Hövsanda yeni ictimai çimərlik sakinlərin istifadəsinə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Suraxanı rayonunun Hövsan qəsəbəsində yaradılmış yeni nümunəvi ictimai çimərlik sakinlərin istifadəsinə verilib. Təxminən 5 hektar ərazini əhatə edən ödənişsiz istirahət məkanı IDEA İctimai Birliyi tərəfindən yaradılan sayca yeddinci nümunəvi ictimai çimərlikdir. IDEA İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, sakinlərin rahat və təhlükəsiz istirahəti üçün çimərlik ərazilərinə Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, kölgəliklər, soyunub-geyinmə və duş kabinələri, sanitar qovşaqlar, söhbətgahlar, şezlonqlar və zibil konteynerləri yerləşdirilib, oyun meydançaları qurulub və istifadə üçün tam hazır vəziyyətdədir. Əlilliyi olan şəxslərə müyəssərliyin təmin edilməsi məqsədilə hərəkəti məhdud olan şəxslərin suya və çimərlikdəki məntəqələrə maneəsiz gedə bilməsi üçün xüsusi yollar və panduslar inşa edilib, çimərlik ərazisinə ən yaxın dayanacaq əlilliyi olan şəxslər üçün xüsusi nişanlama ilə ayrılıb.

Çimərlik ərazisinə giriş və yaradılan bütün imkanlar tamamilə ödənişsiz istifadə üçün nəzərdə tutulub. IDEA nümunəvi ictimai çimərlikləri cəmiyyətdə ekoloji və sosial məsuliyyətin təşviq edilməsinə yönəlib.

# YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ICAPP Daimi Komitəsinin xüsusi sessiyasında çıxış edib








Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin 25-28 iyun tarixlərində Monqolustanın paytaxtı Ulan-Batorda keçirilən 45-ci iclasının xüsusi sessiyasında videoformatda iştirak edib. 17 ölkədən 22 aparıcı siyasi partiya nümayəndələrinin iştirak etdiyi tədbirin açılış mərasimində Monqolustan Xalq Partiyasının baş katibi Sədbator Yanquq və ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq çıxış ediblər.

ICAPP-ın baş katibi Oh Sonq təşkilatın fəaliyyətinə dair cari məsələlər barədə məruzə ilə çıxış edib. Sonra gələcək iş planı ətrafında fikir mübadiləsi aparılıb. ICAPP Daimi Komitəsinin "Rəqəmsal dövrdə Asiya transformasiyası: süni intellektin yaratdığı çağırışlar" mövzusuna həsr olunmuş xüsusi sessiyası keçirilib. Sessiyaya videoformatda qatılan YAP Sədrinin müavini Tahir Budaqov ICAPP Daimi Komitəsinin 45-ci iclasına ev sahibliyinə görə Monqolustan Xalq Partiyasına təşəkkürünü bildirib və iclasın işinə uğurlar arzulayıb. O, hazırda olduqca aktual bir mövzuya həsr olunmuş bu mühüm iclasda aparılan müzakirələrin rəqəmsal inkişafın ən son yeniliklərinin və süni intellektin yaratdığı çağırışlara adekvat tədbirlərin müəyyənləşdirilməsi baxımından səmərəli fikir və təcrübə mübadiləsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Tahir Budaqov qeyd edib ki, bu gün bəşəriyyət fundamental texnoloji dəyişikliklər dövrünü yaşayır: "Asiya qitəsi bu transformasiyanın əsas mərkəzlərindən biridir. Əhalisinin sayı, iqtisadi potensialı, texnoloji innovasiya imkanları və insan kapitalı baxımından Asiya süni intellekt inqilabının əsas hərəkətverici qüvvəsinə çevrilməkdədir. Bununla yanaşı, regionumuz rəqəmsal bərabərsizlik, texnoloji asılılıq, kibertəhlükəsizlik riskləri, etik tənzimləmə və əmək bazarının transformasiyası kimi ciddi çağırışlarla da üz-üzədir. Bu baxımdan əsas məsələ süni intellektin inkişaf edib-etməyəcəyi deyil, onun hansı prinsiplər əsasında inkişaf etdiriləcəyidir. Bu qlobal prosesləri diqqətlə izləyən Azərbaycan rəqəmsal transformasiyanı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Bu sahədə həyata keçirilən islahatlar çərçivəsində ölkədə elektron dövlət xidmətlərinin inkişafı və süni intellekt texnologiyalarının tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Milli prioritetlərimizi dəstəkləyən etibarlı, təhlükəsiz və səmərəli infrastruktur, data bazası və xidmətlər təmin etməklə nəqliyyat və kommunikasiya şirkətlərimizin fəaliyyətini müasirləşdirmək, qarşılıqlı inteqrasiyasını təmin etmək və dəyərini artırmaq məqsədilə 2024-cü ildə "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxs yaradılmışdır. AZCON Holding-in tərkibində fəaliyyət göstərən Milli Süni İntellekt Mərkəzi süni intellekt sahəsində tədqiqat və




inkişaf fəaliyyətinin təşviqinə, innovativ həllərin hazırlanmasına, rəqəmsal transformasiya proseslərinin sürətləndirilməsinə və qabaqcıl texnologiyaların iqtisadiyyatın müxtəlif sahələrində tətbiqinə dəstək göstərir".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 19 mart tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" isə bu istiqamətdə dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edir, ölkədə süni intellekt ekosisteminin inkişaf etdirilməsi, innovativ həllərin təşviqi, elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi və yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasını nəzərdə tutur: "Strategiyanın icrası çərçivəsində atılmış mühüm addımlardan biri Azərbaycanda süni intellekt üzrə bilik və bacarıqların inkişaf etdirilməsi, yeni nəsil mütəxəssislərin hazırlanması məqsədilə 2025-ci ildə Süni İntellekt Akademiyasının yaradılmasıdır. Azərbaycanın ali təhsil müəssisələri də bu prosesdə mühüm rol oynayır. Ölkənin aparıcı universitetlərində kompüter elmləri, informasiya texnologiyaları, verilənlərin analitikası və süni intellekt istiqamətlərində ixtisaslaşmış proqramlar inkişaf etdirilir. Məqsəd yalnız texnologiyadan istifadə edən mütəxəssislər deyil, yeni texnologiyalar yaradan tədqiqatçılar və innovatorlar yetişdirməkdir. Görülən işlər çərçivəsində rəqəmsal texnologiyaların və süni intellektin dövlət idarəçiliyində tətbiqinin genişləndirilməsi ilə bərabər, onların yaratdığı problemlərin və təhdidlərin qarşısının alınması, kibertəhlükəsizliyin gücləndirilməsi yönündə də hüquqi və əməli addımlar atılır, müvafiq qanunlar qəbul edilir. İnsanlar istifadə etdikləri texnologiyaların şəffaflığına, təhlükəsizliyinə və ədalətliliyinə inanmalıdırlar. Süni intellekt sistemləri hüququn aliliyinə, etik normalara və insan hüquqlarına uyğun fəaliyyət göstərməlidir. Bu baxımdan beynəlxalq əməkdaşlığın əhəmiyyəti xüsusi vurğulanmalıdır. Heç bir dövlət süni intellektin yaratdığı imkanlardan və risklərdən təkbaşına sığortalana bilməz. Məlumat təhlükəsizliyi, etik standartlar, rəqəmsal idarəetmə və innovasiya sahəsində ortaq yanaşmaların hazırlanması qlobal zərurətə çevrilmişdir".

Tahir Budaqovun sözlərinə görə, süni intellekt və rəqəmsal transformasiya yalnız hökumətlərin deyil, eyni zamanda, siyasi partiyaların da qarşısında yeni vəzifələr müəyyən edir: "Müasir dövrdə siyasi partiyalar cəmiyyətlə dövlət arasında körpü rolunu oynamaqla yanaşı, texnoloji dəyişikliklərin sosial nəticələrinin düzgün idarə olunmasında mühüm məsuliyyət daşıyırlar. Siyasi partiyalar rəqəmsal savadlılığın artırılması, innovasiyaların təşviqi, gənclərin texnologiya sahəsinə cəlb olunması və süni intellektin etik istifadəsi ilə bağlı ictimai konsensusun formalaşdırılmasında fəal rol oynamalıdırlar. Yeni Azərbaycan Partiyası da süni intellektin imkanlarından istifadə etmək məqsədilə özünün ixtisaslı kadrları vasitəsilə bu texnologiyanı öyrənir və onun tətbiqi imkanlarını təhlil edir. Ötən il iyunun 15-də YAP-ın təşkilatçılığı ilə Şuşa şəhərində keçirilmiş "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" adlı beynəlxalq konfransın "Ortaq dəyərlər və süni intellekt: yeni təhdidlər və imkanlar" mövzusuna həsr olunmuş panel sessiyasında kifayət qədər maraqlı fikir və təcrübə mübadiləsi aparılmışdır. Günümüzün reallıqlarını nəzərə alaraq, bu məsələnin daim diqqət mərkəzində saxlanılmasının və aparılan müzakirələrin əhatə dairəsinin daha da genişləndirilməsinin vacibliyini bir daha qeyd edir, bugünkü müzakirələrin də uğurlu nəticələrlə yadda qalacağına əminliyimi ifadə edirəm".

Aparılmış müzakirələrdə rəqəmsal transformasiyanın və süni intellektin inkişafının qlobal tərəqqi və rifaha bir çox yeni imkanlar yaratdığı qeyd olunub. Bunun belə, yeni texnologiyaların, xüsusən də süni intellektin meydana çıxardığı bir sıra təhlükəsizlik çağırışlarına qarşı beynəlxalq ictimaiyyətin əlaqələndirilmiş və birgə fəaliyyətinin zəruriliyi vurğulanıb.

## Bakı Təşəbbüs Qrupu Kanakinin müstəqillik tərəfdarlarını təbrik edib

Bakı Təşəbbüs Qrupu Kanaki-Yeni Kaledoniyanın müstəqillik tərəfdarı qüvvələrini iyunun 28-də keçirilmiş əyalət seçkilərində qazandıqları nəticələr münasibətilə təbrik edib. Təbrik Bakı Təşəbbüs Qrupunun Kanaki-Yeni Kaledoniyanın müstəqillik tərəfdarı qüvvələrinə dəstək bəyanatında yer alıb. Bəyanatda bildirilib ki, rəsmi nəticələr mövcud siyasi reallığı aydın şəkildə əks etdirir: müstəqillik tərəfdarı olan siyasi qüvvələr arxipelaqın mühafizəkar və loyalist qüvvələri üzərində həm strateji, həm də demokratik baxımdan mühüm qələbə qazanıb. "Bu seçkilər 2024-cü ildə baş vermiş gərginliklərin təsiri, ərazinin gələcək idarəetmə statusu ətrafında aparılan müzakirələr, Fransa hökumətinin propagandası, yerli müstəmləkəçi sağ qüvvələrin təzyiqləri və seçici korpusunun süni genişləndirilməsi ilə bağlı hökumətin birtərəfli qərarları fonunda olduqca mürəkkəb şəraitdə keçirilib.

Seçici korpusunun dondurulmuş statusunun ləğvinə və yerli xalqın səsinin təcrid olunmasına yönələn cəhdlərə baxmayaraq, müstəqillik tərəfdarı olan qüvvələrin birliyi müstəmləkəçi qüvvələr qarşısında siyasi üstünlüyünü təsdiqləyib: Tam suverenlik uğrunda qazanılan 26 mandat. Bu yeni siyasi qüvvələr nisbəti ölkənin gələcək idarəetmə modelinin formalaşmasında azadlıq və öz müqəddəratını təyinetmə uğrunda mübarizə aparan vətənpərvər qüvvələrin rolunu və təsir imkanlarını daha da gücləndirir.

Bakı Təşəbbüs Qrupu kanak xalqının qəhrəman müqavimətini yüksək qiymətləndirir. Kanaki-Yeni Kaledoniya Konqresində yaranmış bu yeni siyasi vəziyyət göstərir ki, nə təzyiqlər, nə də rəsmi Parisin köçkün müstəmləkəçilərin varislərinin maraqlarına kor-koranə dəstəyi ayaqda duran bir xalqın azadlıq istəyini söndürə bilməz.

Fransanın əlaltılarının siyasi məğlubiyyəti müstəmləkəçi hakimiyyət, o cümlədən Fransa müstəmləkəçiliyi altında olan digər ərazilər üçün mühüm dərsdir: öz müqəddəratını təyinetmə hüququ ayrılmaz hüquqdur və tarixi legitimlik həmişə müstəmləkəçilik nəticəsində yaradılmış faktiki vəziyyətə üstün gəlir. Bu məsələ Fransanın öz siyasi maraqlarına uyğun şəkildə birtərəfli qaydada həll edə biləcəyi daxili məsələ deyil, beynəlxalq hüquq çərçivəsində müstəmləkədən azad olunma məsələsidir.

Bakı Təşəbbüs Qrupu Kanaki-Yeni Kaledoniyanın müstəqillik tərəfdarı qüvvələri, eləcə də öz müqəddəratını təyinetmə hüququnun tanınması və müstəmləkədən azad olunma prosesinin başa çatdırılması uğrunda sülh yolu ilə mübarizə aparan bütün səslərlə həmrəyliyini bir daha təsdiqləyir", - deyə bəyanatda vurğulanıb.

## Azərbaycan və Qazaxıstan xarici işlər nazirləri əməkdaşlığın perspektivlərini nəzərdən keçiriblər




İyunun 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev arasında telefon danışığı baş tutub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq münasibətlərinin gündəliyində duran məsələlər, ikitərəfli və çoxtərəfli əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub. Nazirlər beynəlxalq və regional təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq və qarşılıqlı dəstəyin əhəmiyyətini vurğulayaraq, çoxtərəfli platformalarda əlaqələndirilmiş fəaliyyətin bundan sonra da davam etdirilməsinin vacibliyini qeyd ediblər.

Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM) sədrliyi çərçivəsində həyata keçirilən tədbirlər və qarşıdakı təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov Azərbaycanda keçirilən Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsində Qazaxıstanın yüksək səviyyədə təmsil olunmasını məmnunluqla qeyd edərək, bunun ortaq tarix, mədəniyyət və mənəvi irsin təşviqi, eləcə də Türk dünyasında həmrəyliyin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

# Türk dünyasının ortaq məsuliyyəti

## Azərbaycanda "Türk Dünyası Həftəsi" böyük coşqu ilə davam edir

Bu günlərdə Azərbaycan bütün türk dünyası üçün əlamətdar olan bir tədbirə ev sahibliyi edir. Söhbət iyunun 29-da Heydər Əliyev Mərkəzində açılışı baş tutan Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"ndən gedir. "Türk Dünyası Həftəsi" Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Bakı Dövlət Universiteti, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun tərəfdaşlığı ilə keçirilir. Açılış mərasimində Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan prezidentlərinin tədbir iştirakçılarına müraciətləri oxunub.

Tədbirə türk respublikaları daxil olmaqla, ümumilikdə 20 ölkənin müxtəlif elmi mərkəzlərindən 80 tanınmış türkoloq-alim, eləcə də türk beynəlxalq təşkilatlarından nümayəndələr qatılıblar. "Türk Dünyası Həftəsi" çərçivəsində Şuşa, Xankəndi və Ağdam şəhərləri də daxil olmaqla müxtəlif məkanlarda çoxsaylı tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, elm və mədəniyyətlə bağlı silsilə tədbirlərdən ibarət həftə Azərbaycan Prezidenti İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli sərəncamına uyğun olaraq təşkil olunub. Dövlətimizin başçısı tədbir iştirakçılarına ünvanladığı müraciətində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı irəli sürdüyü təşəbbüsün reallaşmasının məmnunluq doğurduğunu bildirib. "Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə əlaqədar Türk Dünyası Həftəsinin Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi dövrünə təsadüf etməsinin xüsusi rəmzi mənası vardır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### Müstəsna əhəmiyyətə malik qurultay

Birinci Türkoloji Qurultay 1926-cı ilin 26 fevral-6 mart tarixlərində Bakı şəhərində baş tutub. Qurultayın işində keçmiş Sovet İttifaqı məkanında yaşayan türk xalqlarının təmsilçiləri ilə yanaşı, xarici qonaqlar, ümumilikdə isə 131 nəfər nümayəndə - alimlər, dilçilər, tarixçilər, şairlər, yazıçılar iştirak edib.Qurultayda türk dillərinin yeddi böyük problemi müzakirə obyekti olub və aşağıdakı müvafiq qərarlara imza atılıb:

- Əlifba məsələsi;
- İmla-orfoqrafiya problemi;
- Termin məsələsi;
- Tədris-metodika məsələsi;
- Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;
- Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi;
- Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

Çox doğru olaraq Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələ kimi dəyərləndirilir. Qurultay həm elmi, həm də praktik səviyyədə birlik ideyasını təşviq edən ilk platforma olub. Bu baxımdan, İsmayıl bəy Qaspıralı tərəfindən irəli sürülən "dildə, fikirdə və əməldə birlik" prinsipi bu gün də aktuallığını qoruyan əsas istiqamətləndirici ideyalardan biridir. Türk dünyası tarixində ilk dəfə olaraq bu qurultay çərçivəsində Sibirdən Krıma, Anadoludan digər geniş coğrafiyalara qədər yaşayan türk xalqlarının nümayəndələri bir araya gəliblər. Onlar ortaq mədəniyyət, dil, tarix və gələcək ilə bağlı fikirlərini sərbəst şəkildə ifadə etmək imkanı qazanıblar. Eyni zamanda, qurultayda türkçülük ideyasının inkişafı və türk dünyasının gələcəyi baxımından mühüm qərarlar qəbul edilib.






### Məkan olaraq Bakının seçilməsi təsadüfi deyil

Birinci Türkoloji Qurultayda qəbul edilən və türk dünyasının tərəqqisini hədəfləyən taleyüklü qərarlar türk xalqlarının məfkurə, elmi-mədəni həmrəyliyinin qorunub saxlanılmasında mühüm rol oynayıb. Təəssüf doğuran haldır ki, keçmiş sovet rejiminin sərt ideoloji qadağaları, türk dünyasını parçalamaq istəyən güc mərkəzlərinin ambisiyaları həmin qərarların həyata keçirilməsini əngəllədi, eyni zamanda, qurultay iştirakçılarının bir çoxu repressiyalara məruz qaldı. Lakin zaman hər şeyi yoluna qoydu və 70 il mövcudluqdan sonra keçmiş ittifaq süquqta uğradı. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində baş verən geosiyasi proseslər fonunda Cənubi Qafqazda və Mərkəzi Asiyada müstəqil türk dövlətləri dünya xəritəsinə daxil oldular. Bax bu yeni şəraitdə də Birinci Türkoloji Qurultayın qərarları türk xalqlarının yolunu yenidən işıqlandırdı.

Bəs türk xalqlarının tarixində mühüm mərhələ sayılan Birinci Türkoloji Qurultayın keçirilməsi üçün məkan olaraq niyə məhz Bakı seçilmişdi? Prezident İlham Əliyev bildirib ki, türk dünyasının ortaq mənəvi dəyərlərinin - dil, tarix, etnoqrafiya, ədəbiyyat və mədəniyyətin inkişafı və gələcəyi ilə bağlı vacib məsələlərin, xüsusən vahid ümumtürk əlifbasına keçilməsinin diqqət mərkəzində saxlanıldığı beynəlxalq miqyaslı bu unikal elmi-mədəni forumun o zaman məhz Azərbaycanda keçirilməsi təsadüfi deyildi. Azərbaycan XIX əsrdən etibarən köklü ictimai-siyasi və mədəni dəyişikliklər nəticəsində yeni tipli teatr, məktəb və ilk milli mətbu orqanı yaratmaqla milli özünüdərkin gerçəkləşməsinə zəmin hazırlamış, müsəlman və türk dünyasında artıq ilk demokratik dövlət qurmuşdu. Paytaxt Bakı şəhəri də hələ ötən əsrin əvvəllərindən özünün milli ruhlu ziyalılar nəslindən ibarət intellektual mühitinin yüksək səviyyəsi ilə seçilərək dünya türkologiyasının mötəbər mərkəzlərindən biri kimi tanınırdı.

### Türk həmrəyliyinin möhkəmlənməsində Azərbaycanın müstəsna rolu

Birinci Türkoloji Qurultayın irsini yaşatmaq, zənginləşdirmək və gələcək nəsillərə ötürmək bütün türk xalqlarının ortaq məsuliyyətidir. XXI əsr türk əsri adlandırılır. Biz indiki keşməkeşli dönəmdə türk əsrini birlikdə inşa etməliyik. Azərbaycan türk dünyasında həmrəyliyin möhkəmlənməsində tarixi rolunu bu gün də böyük məsuliyyətlə davam etdirir. Biz qürur duyuruq ki, artıq beynəlxalq təsisat kimi fəaliyyət göstərən Türk Dövlətləri Təşkilatının əsası Prezident İlham Əliyevin təşəbbüsü ilə Naxçıvanda qoyulub. Bundan sonra isə respublikamız qurumun institusional təsisat kimi formalaşmasında və funksionallığının artmasında mühüm rol oynayıb. TDT-nın qeyri-formal zirvə görüşlərinin keçirilməsi ənənəsinə də Azərbaycandan-Şuşadan başlanılıb. Eyni zamanda, 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışı öz əksini tapıb. Prezident İlham Əliyev 22 oktyabr 2025-ci il tarixində "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalayıb. Sərəncamda xüsusi olaraq vurğulanır ki, Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir.

Bu gün türk dövlətlərini bir çətir altında birləşdirən TDT nüfuzlu beynəlxalq təsisata çevrilməkdədir. Qurum böyük türk coğrafiyasının iqtisadi və siyasi gücünü getdikcə daha dolğun şəkildə təcəssüm etdirir. Onun beynəlxalq münasibətlər sistemində rolu da getdikcə artır. Tam əminliklə demək mümkündür ki, hazırda TDT-nın dünyada türk həmrəyliyinin möhkəmlənməsinə hesablanan layihələrinin təməlində məhz zamanında Birinci Türkoloji Qurultayda irəli sürülən mütərəqqi ideyalar dayanır. "Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Biz bu ailənin möhkəmliyi və sarsılmazlığı naminə var güvəmizi bundan sonra da əsirgəməyəcəyik". - deyə Prezident İlham Əliyev vurğulayıb.

Yeri gəlmişkən, tədbirdə Azərbaycanın dünyada türk həmrəyliyinin möhkəmlənməsinə verdiyi töhfələr xüsusi vurğulanıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbir iştirakçılarına ünvanladığı müraciətində qeyd edib ki, 1926-cı ildə Birinci Türkoloji Qurultayın məhz Bakıda keçirildiyi kimi, onun 100 illiyinə həsr olunmuş tədbirin də Azərbaycan paytaxtında təşkil olunması təsadüfi deyil. Onun sözlərinə görə, Türk dünyasının birlik və həmrəyliyinin ən güclü müdafiəçilərindən olan Azərbaycan bu gün də türk dövlətlərinin ortaq məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verir.

*Mübariz ABDULLAYEV*

# Korsikaya muxtariyyət verilir

## Fransa parlamenti bununla bağlı konstitusiya qanunu qəbul edib



Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransanın əlində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Bu müstəmləkəçilik siyasətindən müxtəlif xalqlar hələ də əziyyət çəkir. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlayır. Təəssüf ki, beynəlxalq ictimaiyyət rəsmi Parisin bu siyasətinə qarşı adekvat reaksiya vermir.

Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının 2023-cü il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb.

**271 lehinə, 202 əleyhinə...**

Hazırda Fransa Afrikada, Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı bəzi ərazilərdə müstəmləkəçilik siyasətini davam etdirir. Bakı Təşəbbüs Qrupu isə Fransanın bu siyasətinə qarşı müxtəlif yerli və beynəlxalq səviyyəli tədbirlər keçirir. Həmin tədbirlərdə fransız müstəmləkəsindən əziyyət çəkən xalqların nümayəndələri də fəal iştirak edirlər. Artıq Azərbaycanın həmin xalqlara siyasi və mənəvi dəstək göstərməsi öz nəticəsini verməkdədir.

Belə ki, bugünlərdə Fransa Milli Assambleyası Korsikanın respublika daxilində muxtariyyət əldə etməsini nəzərdə tutan konstitusiya qanunu layihəsini 271 lehinə, 202 əleyhinə səslə qəbul edib. Bu qərar Fransanın nəzarətindəki bir ərazi üçün ilk belə təşəbbüs hesab olunur. Səsvermə 2022-ci ilin martında həbsxanada öldürülən korsikalı millətçi İvan Kolonnanın ölümündən sonra adada baş verən iğtişaşların ardınca başlayan siyasi prosesin mühüm mərhələsi kimi qiymətləndirilir. Məhz həmin hadisələrdən sonra hökumət Korsikanın seçilmiş nümayəndələri ilə dialoqa başlayıb.

2023-cü ilin sentyabrında Fransa prezidenti Emmanuel Makron Korsikaya səfəri zamanı ilk dəfə olaraq, "Respublika daxilində Korsika muxtariyyəti" prinsipini dəstəklədiyini və bunun Konstitusiyada əks olunmasının mümkünlüyünü bəyan etmişdi. Dövlət və Korsika nümayəndələri arasında iki ilə yaxın davam edən danışıqlardan sonra 2024-cü il martın 11-də tarixi razılaşma əldə olunub. Qanun layihəsi Konstitusiyaya yeni maddə əlavə edilməsini nəzərdə tutur. Bu maddə Korsikaya adanın coğrafi, dil və mədəni xüsusiyyətlərinə uyğun normativ və qanunvericilik səlahiyyətləri verəcək. Bununla belə, müdafiə, ədliyyə və xarici siyasət kimi dövlətin əsas səlahiyyətləri Parisin nəzarətində qalacaq.

İslahat tərəfdarları hesab edirlər ki, bu addım nəqliyyat, mənzil, yüksək yaşayış xərcləri, ətraf mühitin qorunması və korsika dilinin yaşadılması kimi problemlərin həllinə kömək edəcək, eyni zamanda, onilliklərdir davam edən gərginliyin azalmasına şərait yaradacaq.

**"Korsika xalqı üçün mühüm mərhələdir"**

Azərbaycan Milli Məclisinin Korsika Xalqına Dəstək Qrupu isə Fransa Milli Assambleyasında qəbul edilmiş konstitusiya qanunu layihəsinə dair bəyanat yayıb. Bəyanatda bildirilir ki, Fransa Milli Assambleyasında Korsikanın Fransa Respublikası daxilində xüsusi muxtariyyət statusunun təsbit edilməsini nəzərdə tutan konstitusiya qanunu layihəsinin qəbul olunması Korsika xalqı üçün mühüm mərhələdir. Qanun layihəsi adanın tarixi, mədəni, sosial və coğrafi xüsusiyyətləri nəzərə alınmaqla Korsikaya daha geniş özünüidarəetmə səlahiyyətlərinin verilməsini nəzərdə tutur və bu baxımdan Korsika xalqının uzun illər ərzində apardığı dinc, demokratik və ardıcıl mübarizənin mühüm siyasi nəticəsi kimi qiymətləndirilir.

"Biz, Milli Məclis Korsika Xalqına Dəstək Qrupu olaraq, Korsika xalqının bu əzmini, qətiyyətini və demokratik prinsiplərə sadiqliyini yüksək qiymətləndirir, onları səmimi qəlbdən alqışlayırıq. Korsika xalqının öz gələcəyini müəyyənləşdirmək istiqamətində nümayiş etdirdiyi əzm və qətiyyət bir daha göstərir ki, xalqların legitim tələbləri gec-tez siyasi müstəvidə öz əksini tapır. Bu baxımdan Fransa Milli Assambleyasında qəbul olunmuş qərar yalnız qanunvericilik aktı deyil, həm də Korsika xalqının uzunmüddətli mübarizəsinin mühüm siyasi nailiyyətidir. Ümidvarıq ki, Fransa Senatı da tarixi məsuliyyət nümayiş etdirərək Fransa Milli Assambleyasının qəbul etdiyi qərarı dəstəkləyəcək və bununla da Korsika xalqının demokratik iradəsinə hörmət ifadə edəcək. Azərbaycan Milli Məclisinin Korsika Xalqına Dəstək Qrupu bundan sonra da Korsika xalqının qanuni hüquqlarının, demokratik iradəsinin və dinc siyasi mü-



barizəsinin beynəlxalq ictimaiyyət tərəfindən obyektiv qiymətləndirilməsini dəstəkləməyə davam edəcək",-deyə bəyanatda vurğulanıb.

**BTQ və "Nazione" Hərəkatı əməkdaşlıq edir**

Xatırladaq ki, ötən il mayın 13-də İtaliyanın paytaxtı Romada Bakı Təşəbbüs Qrupunun (BTQ) və Korsikanın müstəqilliyi uğrunda mübarizə aparan "Nazione" Hərəkatının birgə təşkilatçılığı ilə "Milli kimlik, müqavimət və suverenlik: Korsika üçün perspektivlər" adlı tematik konfrans keçirilmişdi. Konfransda "Nazione" Hərəkatının rəhbər və səlahiyyətli nümayəndələri, eyni zamanda, Azərbaycan Milli Məclisində fəaliyyət göstərən Korsika Xalqına Dəstək Qrupunun üzvü Tural Gəncəliyev iştirak etmişdi. Konfrans çərçivəsində "Nazione" Hərəkatının üzvləri Fransa müstəmləkə siyasətindən əziyyət çəkən Korsika xalqının qarşılaşdığı əsas çağırışlar - Korsika milli kimliyinin və Korsika dilinin Fransa hökuməti tərəfindən məqsədli şəkildə assimilyasiya edilməsi siyasətini kəskin pisləyib, eləcə də qarşılaşdıqları iqtisadi və sosial diskriminasiya faktlarını diqqətə çatdırmışdılar.

"Nazione" Hərəkatının gənclər bölməsinin rəhbəri Kilianu Beqliomini çıxışını Korsika xalqının milli kimliyində böyük rol oynayan Korsika dilinə həsr edərək korsikalı yazıçı Lisandru Bassaninin "Korsika dili Korsika xalqının milli kimliyinin məbədidir" fikrini səsləndirib. O, Korsika xalqının öz ana dilində danışmaq istəyinin kolonial Fransa tərəfindən qarşısının alındığını vurğulayaraq beynəlxalq ictimaiyyətin bu məsələyə diqqətini cəlb etmək üçün beynəlxalq mexanizmlərə müraciət edildiyini bildirmişdi.

Çıxış edənlər Fransa hüquq-mühafizə orqanlarının diktəsi ilə adada fəaliyyət göstərən qeyri-rəsmi dəstələr (Barbouzard) vasitəsilə Korsika xalqının müstəqilliyi uğrunda mübarizə aparan şəxslərin qətlə yetirilməsi cəhdləri və həmin xidmətin əməkdaşlarının medallarla təltif edildikləri barədə də danışmışdılar.

Həmin konfrans zamanı Bakı Təşəbbüs Qrupu və "Nazione" Hərəkatı arasında əməkdaşlıq memorandumu imzalanıb. Sənədə əsasən, BTQ və "Nazione" kolonializm və neokolonializmə qarşı mübarizə aparmaq və insan hüquqlarının müdafiəsi məsələsində əməkdaşlıq etməyə dair razılığa gəliblər.

*Nardar BAYRAMLI*

# İkili standartların kölgəsinə sığınanlar...

## Bəzi Qərb dövlətləri müharibə cinayətkarını niyə müdafiə edir?

Bəzi Qərb dövlətləri bəyan etdikləri “dəyərləri” tapdaması tendensiyası yenidən aktuallaşır. İllərdir separatizmə qarşı “mübarizə” adı altında xəyali təbliğatlar aparan həmin dövlətlərin iç üzü açılır - nəticə etibarı ilə ortadakı situasiya bunu deməyə əsas verir. Beynəlxalq, ədalət prinsipini, bəşəri insani dəyərləri bir göz qırpımında özünün korporativ maraqlarına qurban verən “demokratik dünya” təmsilçiləri fərqli coğrafiyalara fərqli standartlar üzərindən yanaşdığını faktoloji şəkildə sübut edirlər. Cənubi Qafqaza yanaşmada illərlə erməni işğalına göz yuman, vasitəçilik adı altında təcavüzkarı qoruyan, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası üçün əməli fəaliyyət nümayiş etdirməyən bu ölkələr yeni reallıqlarla da “barışmaq” istəmir. Azərbaycanın son 6 ildə bölgədə formalaşdırdığı siyasi situasiya nəticəsində ortaya çıxan mənzərə təbii ki, həmin ölkələrin və dairələri ürəyincə deyil - halbuki Azərbaycan 30 ildən çox davam etmiş işğal faktını aradan qaldırmaqla yanaşı, BMT TŞ-nın məlum 4 qətnaməsinin icrasını da yerin yetirib. Dolayısı ilə Azərbaycan həm də beynəlxalq aləmin Ermənistan tərəfindən tapdanan nüfuzunu bərpa edib. 2023-cü il antiterror əməliyyatı ilə isə Azərbaycan özünün suverenliyini bərpa etməklə yanaşı, illərlə separatizm yayan, Azərbaycan qanunlarını pozan, müxtəlif cinayətlərdə günahlandırılan separatçı xunta üzvlərini ədalət mühakiməsi qarşısına çıxardı. Bu, ali hüququn təntənəsidir - cinayətkarın törətdiyi cinayətin məsuliyyətini daşıması ədalətin və hüququn qələbəsidir. Amma deyəsən, bir sıra dövlət üçün bu dəyərlər artıq aşınıb...

### Vardanyan “sevgisi”, yoxsa sülhə mane olmaq istəyi...

Söhbət ondan gedir ki, 2023-cü ilin payızından indiyə qədər bir sıra ölkələr, xüsusilə Fransa, eləcə də bir sıra təşkilatlar separatçıların “azad edilməsi” üçün dayanmadan piar aparmaqdadır. Xüsusilə, cinayətkar xuntanın üzvü, ermənəsilli oliqarx, Qarabağdakı separatçı rejimdə “dövlət naziri” olmuş Ruben Vardanyanın azad edilməsi uğrunda yorulmadan iş aparırlar. 2023-cü ilin payızında həbs edilən Vardanyanın azad edilməsi üçün Fransanın göstərdiyi canfəşanlıq isə xüsusi qeyd edilməlidir - davamlı şəkildə bu ölkənin qanunverici strukturu, o cümlədən bu ölkənin təsiri ilə ayrı-ayrı “beynəlxalq” təşkilatlar Vardanyan ətrafında aparılan “şou”nun təbliğatçıları və təşkilatçılarıdırlar.

Sülh prosesinin dinamik bir hal alması isə bu “təbliğatı” yenidən işə salıb. Ermənistanın siyasi rəhbərliyinin Qarabağ məsələsinin bitdiyini elan etməsinin ardından belə xaricdəki erməni lobbisinin təsiri ilə yenidən proses davam etdirilir. Əlbəttə ki, mənzərə aydındır - Vardanyandan sadəcə öz maraqları üçün istifadə edən bu dövlətlər və təşkilatlar birbaşa sülh prosesinə mane olmağa çalışırlar. Ötən ilin yayında Vaşinqtonda sülh sazişinin paraflanması onları əməlli-başlı narahat edib. Bu narahatlıq isə sonda onların maskalarının tam şəkildə cırılmasını, əsl simalarının üz çıxmasını şərtləndirdi. Beləliklə, adını “demokratik dövlət” qoyan ölkələr separatizmi müdafiə etməklə əsl kimliklərini nümayiş etdirirlər.



Bəli, özlərinin bütün dövlətlərin daxili işlərinə müdaxilə kimi müstəsna bir “hüquqa” malik olduqlarını düşünən bu dövlətlər və təşkilatlar arxada qalan 30 illik işğal dövründə bir dəfə də olsun Azərbaycan xalqına qarşı törədilən cinayətlər haqda danışmayıblar, onu görməzdən gəliblər. Ermənistan silahlı qüvvələrinin işğalı illərində

Bu isə təbii şəkildə Azərbaycan cəmiyyətinin narazılığına səbəb olur. 30 il ermənilərin işğalına göz yuman, erməni talanına susan, bir milyona yaxın qaçqın və məcburi köçkünün taleyi ilə maraqlanmayan, 4 mindən çox itkin düşmüş azərbaycanlının taleyini görməzdən gələn, hətta müharibədən sonra belə davam edən mina terroruna etiraz etməyən bu dövlətlərin müharibə cinayətkarını müdafiə etməsi heç bir hüquqa sığmır. Bu cinayətkarın “müharibə qurbanı” kimi beynəlxalq ictimaiyyətə təqdimatı ədalətə və hüquqa arxa çevirməkdir. Yeri gəlmişkən, Azərbaycan QHT-ləri, şəhid ailələri, itkin düşmüş şəxslərin və mina terroru qurbanlarının yaxınları keçmiş məcburi köçkünlər bu məsələ ilə bağlı Açıq Məktub ünvanlayıblar. Açıq Məktubda Ruben Vardanyanın və digərlərinin törətdikləri ağır cinayətlərə, separatizmi və terrorizmi maliyyələşdirməsinə görə məhkum edildikləri bildirilib. Qeyd olunub ki, onların adı ilə süni şəkildə qurulan kampaniyalar bu cinayətlərin real qurbanlarının - onilliklər boyu münaqişə, işğal, etnik təmizləmə,

### Azərbaycan ictimaiyyətindən etiraz...

terror və mina təhlükəsindən birbaşa zərər çəkmiş minlərlə azərbaycanlının haqlı səsini boğmaq və kölgədə qoymaq məqsədi daşıyır. Sənəddə vurğulanır ki, Azərbaycan vətəndaş cəmiyyəti uzun illərdir beynəlxalq strukturlara müraciətlər ünvanlayaraq müharibə cinayətləri qurbanlarının hüquqlarının müdafiəsini, tarixi ədalətin bərqərar olunmasını və beynəlxalq məsuliyyət prinsiplərinin qorunmasını tələb edir. Müraciət müəllifləri xüsusi olaraq bəyan ediblər ki, Azərbaycanın öz suveren ərazilərində törədilmiş ağır cinayətləri araşdırmaq, qanunun aliliyini təmin etmək və təqsirkar şəxsləri məhkəmə qarşısına çıxarmaq hüququ və öhdəliyi həm daxili qanunvericilikdən, həm də fundamental beynəlxalq hüquq normalarından irəli gəlir və bu suveren hüquqa kənar müdaxilə yolverilməzdir. Sənəddə onilliklər ərzində itkin düşmüş şəxslərin ailələrinin beynəlxalq birliyə etdiyi çoxsaylı çağırışların cavabsız qaldığı, Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş 4 mindən çox azərbaycanlının taleyinin bu gün də naməlum saxlanıldığı və 3400-dən çox mina qurbanının humanitar faciəsinin qlobal kampaniyalarda qərəzli şəkildə diqqətdən kənarda saxlanıldığı faktlarla ifşa olunur. Xüsusilə itkin düşmüş oğlu ilə bağlı xəbər belə ala bilmədən, ömür boyu dərin daxili əzablar içində yaşayaraq ötən il vəfat edən Elmira Dadaşovanın acı taleyi beynəlxalq ictimaiyyətin nümayiş etdirdiyi ikili standartlardan və vurulmuş mənəvi zərər nümunələrindən biri kimi göstərilir. Məktubda bildirilir ki, 2025-ci ilin avqustunda Vaşinqtonda “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş” layihəsinin paraflanması regionda fundamental və yeni inkişaf mərhələsinin əsasını qoyub. Bununla yanaşı, qətiyyətlə vurğulanır ki, Cənubi Qafqazda davamlı sülh yalnız keçmişdə törədilmiş ağır müharibə cinayətlərinə dürüst hüquqi qiymət verilməsi, cinayətkarların qanun qarşısında məsuliyyətə cəlb edilməsi və qurbanların tapdanmış hüquqlarının tam bərpası əsasında mümkündür.



### 30 il susanların “səsi”...

Azərbaycanda 1,5 milyon mina basdırılıb, bu isə ölkə ərazisinin 13 faizini təşkil edir. Ermənistanın 30 illik mina terroru nəticəsində də beynəlxalq humanitar hüquq, o cümlədən fundamental insan hüquqları kobud şəkildə pozulub. Bu gün də günahsız insanlar mina qurbanı olur. Ermənilər ötən 30 il ərzində tariximizi saxtalaşdırmağa, Azərbaycanın tarixi torpaqlarından izimizi silməyə çalışıblar. Tarixi abidələrimiz məhv edilib, məscidlərimiz, dini inanc yerlərimiz təhqir olunub. Amma bir dəfə də olsun bu dövlətlər baş verənlərlə bağlı bəyanat səsləndirməyiblər - indi isə cinayətkarlarla haqq qazandırmağa, bölgədəki sülh prosesinə kölgə salmağa niyyətləniblər. Bunu isə bacarmayacaqlar...

**P.SADAYOĞLU**

# Milli Məclisdə 14 məsələ müzakirə edilib

İyunun 30-da Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 14 məsələ daxil edilib.

Əvvəlcə spiker Sahibə Qafarova çıxış edərək bildirib ki, iyunun 22-dən 25-dək Bakıda Milli Məclisin ev sahibliyi ilə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası uğurla keçirilib. Onun sözlərinə görə, İslam Əməkdaşlıq Təşkilatı dünyanın ən böyük beynəlxalq qurumlarından biridir və öz sıralarında 57 dövləti birləşdirir: “1969-cu ildə yaradılmış bu təşkilat müsəlman ölkələri arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, habelə islam dünyasının ümumi maraqlarının müdafiəsi üçün mühüm platforma rolunu oynayır. Təşkilatın Parlament İttifaqı Konfransının 20-ci sessiyası Azərbaycanın islam aləmində yüksək nüfuzunu bir daha təsdiq edən mühüm beynəlxalq hadisə oldu. Tədbirdə 43 ölkədən və 11 beynəlxalq təşkilatdan 54 nümayəndə heyəti, ümumən 500-dən çox nümayəndə iştirak edib”. S.Qafarovanın fikrincə, sessiyada İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqına sədrliyin Azərbaycan Milli Məclisinə təhvil verilməsi ölkəmizə göstərilən yüksək beynəlxalq etimadın bir ifadəsidir və dövlətimizin müsəlman ölkələri ilə əməkdaşlığı inkişaf etdirmək sahəsində ardıcıl siyasətinin təsdiqidir. “Tədbirin mühüm yekunlarından biri də Bakı Bəyannaməsinin qəbul edilməsi oldu. Bəyannamə İttifaqın üzvü olan parlamentlərin qarşılıqlı əlaqəni və əməkdaşlığı, həmrəyliyi və dialoqu daha da möhkəmləndirmək əzmini ifadə edir”,-deyə spiker vurğulayıb.

Sonra gündəlikdəki məsələlər müzakirə olunub. Əvvəlcə “Metrik Konvensiya”ya qoşulmaq haqqında qanun layihəsi qəbul olunub. Layihəyə əsasən, Azərbaycan Respublikası 1875-ci il mayın 20-də Paris şəhərində imzalanmış “Metrik Konvensiya”ya qoşulur. “Metrik Konvensiya” ölçü vahidlərinin beynəlxalq vəhdətini təmin edən, qlobal standartlaşdırmanın əsasını qoyan tarixi beynəlxalq müqavilədir.

Daha sonra “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. Sənəd haqqında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məlumat verib. Layihəyə əsasən, 2025-ci ildə Azərbaycanın dövlət büdcəsinin gəlirləri təsdiq edilmiş proqnozu 2,2 faiz üstələyərək 39 milyard 184,6 milyon manata çatıb. Dövlət büdcəsinin xərcləri isə 38 milyard 604,6 milyon manat təşkil edib ki, bu da təsdiq olunmuş proqnozdan 6,8 faiz azdır. Nəticədə, 2025-ci ildə dövlət büdcəsi 580 milyon manat profisitlə icra olunub.



İclasda iştirak edən maliyyə naziri Sahil Babayev çıxış edərək millət vəkillərinin qaldırdığı məsələlərə aydınlıq gətirib, bir sıra sualları cavablandırıb. Onun sözlərinə görə, 2025-ci ilin dövlət büdcəsinin icrası göstərir ki, Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş inkişaf kursu mürəkkəb qlobal iqtisadi şəraitdə belə ölkəmizin dayanıqlı inkişafını, maliyyə sabitliyini və vətəndaş rifahının yüksəldilməsini təmin edib. Nazir bildirib ki, son illərdə dünyada geosiyasi gərginliklərin, logistika zəncirlərində pozuntuların, enerji və ərzaq bazarlarındakı dəyişkənliyin davam etməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını qoruyub, dövlət maliyyə sistemi çevik və məsuliyyətli idarəetmə prinsipləri əsasında fəaliyyət göstərib: “Bu nəticələr əsasında fiskal intizamın gücləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi və əhalinin sosial rifahının yaxşılaşdırılmasına davamlı diqqət dayanır. 2025-ci ildə dövlət və icmal büdcələr müəyyən edilmiş prioritet istiqamətlərin, sosial təminat tədbirlərinin, ölkənin iqtisadi inkişafının, müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin, işğaldan azad edilmiş ərazilərimizin bərpa və yenidən qurulması tədbirlərinə yönəldilməklə icra edilib və hökumət qarşısında qoyulan vəzifələrin maliyyələşdirilməsi təmin olunub”.

S.Babayev deyib ki, son illər ölkəmizdə aparılan ardıcıl islahatlar qeyri-neft sektorunun davamlı inkişafını şərtləndirib. Hesabat dövründə qeyri neft-qaz sektoru üzrə ÜDM 92,3 milyard manat təşkil etməklə, ümumi ÜDM-in 71,5 faizinə bərabər olub. Bu 2024-cü illə müqayisədə 2,7 faiz real artım deməkdir. Nazir bildirib ki, icmal büdcədə qeyri-neft gəlirlərinin payı 55,2 faizə, qeyri-neft vergilərinin payı isə 25 faizə çatıb. Bu da əvvəlki illə müqayisədə müvafiq olaraq 2,8 faiz-bəndi və 2 faiz bəndi çoxdur. “Dövlət büdcəsinin qeyri-neft gəlirlərinin ümumi daxilolmalardakı xüsusi çəkisi son 5 ildə 43,3 faizdən 52 faizə yüksəlib. 2026-cı ilin dövlət büdcəsində qeyri-neft gəlirlərinin xüsusi çəkisinin 57,4 faizə çatdırılması nəzərdə tutulur”, - deyə S.Babayev qeyd edib.

İclasda, həmçinin İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. Qanun layihəsi rəqəmsal mühitdə uşaqların hüquq və mənafelərinin daha effektiv qorunması, sosial şəbəkə platformalarından təhlükəsiz istifadənin təmin olunması, habelə platformaların fəaliyyətinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Layihə hazırlanarkən qabaqcıl beynəlxalq təcrübə təhlil edilib. Bu xüsusda, sosial şəbəkələrdə fərdi rəqəmsal hesabların açılması üçün minimum rəqəmsal yetkinlik yaş həddi 16 yaş müəyyən olunub. Layihədə 16-18 yaş qrupunun platformalarda fərdi rəqəmsal hesab yaratması, ondan istifadə etməsi və kontent paylaşması yalnız qanuni nümayəndəsinin razılığı və nəzarəti altında mümkün olacağı nəzərdə tutulur. Həmçinin platforma provayderlərinin uşaqların təhlükəsizliyinin təmin edilməsi, zərərli məzmunun qarşısının alınması, fərdi məlumatların qorunması, təhlükəli məlumatların operativ şəkildə silinməsi və dövlət orqanları ilə əməkdaşlıq etməsi ilə bağlı vəzifələri müəyyən edilir. Qanun layihəsi ilə İnzibati Xətalar Məcəlləsinə yeni maddələrin əlavə edilməsi nəzərdə tutulur.

Layihənin keçid müddəalarına əsasən, qanun qüvvəyə mindiyi gündən etibarən sosial şəbəkə platformalarına yeni tələblərə uyğunlaşmaq üçün müəyyən müddət verilir. Sənədin qəbul edilməsi uşaqların rəqəmsal mühitdə hüquqlarının müdafiəsinin gücləndirilməsinə, təhlükəsiz informasiya mühitinin formalaşdırılmasına, sosial şəbəkə platformalarının fəaliyyətinə dair hüquqi mexanizmlərin təkmilləşdirilməsinə və dövlət nəzarəti imkanlarının artırılmasına xidmət edəcək.

“Dövlət qulluğu haqqında” və “Media haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə görə isə Azərbaycanda Media və Yayım Şurasının yaradılması nəzərdə tutulub. Qeyd edilib ki, müasir dövrdə milli informasiya təhlükəsizliyini və medianın iqtisadi müstəqilliyini təmin etmək üçün Azərbaycanda media sahəsinə münasibətdə daha çevik və kollegial mexanizmə keçid zərurəti yaranıb. Sözügedən mexanizm də öz növbəsində çap, onlayn və audiovizual media arasındakı sərhədlərin silinməsi, informasiya sisteminin əsas sütunu olan mediaya vahid yanaşmanı şərtləndirir.

Bu baxımdan, qanun layihəsində vahid qurumun - Media və Yayım Şurasının yaradılması, Şura ilə bağlı vəzifə və öhdəliklərin “Media haqqında” Qanunda öz əksini tapması və qurumun kollegial idarəetmə modelini əsas götürməsi medianın müstəqilliyinə və quruma münasibətdə ictimai etimadın yüksəlməsinə zəmanət verən effektiv mexanizmdir.

“Media haqqında” Qanunda təklif olunan dəyişikliklər daxili informasiya məkanının təhlükəsizliyini təmin etməyə, eləcə də yerli medianın inkişafına təkan verməyə şərait yaradacaq. Bu xüsusda, media və yayım sahəsində səlahiyyətli Şuranın yaradılması “Dövlət qulluğu haqqında” Qanunun müvafiq maddələrində də dəyişikliklər edilməsini nəzərdə tutur.

Bütövlükdə, təqdim olunan qanun layihəsi media sahəsində normativ tənzimləmənin müasirləşdirilməsi, tətbiq mexanizmlərinin gücləndirilməsi, hüquqi müəyyənliyin təmin edilməsi və beynəlxalq standartlara uyğunluğun artırılmasına məqsədi daşıyır.

Müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Qeyd edək ki, deputatlar iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.

**Nardar BAYRAMLI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə hazırlanmışdır**

# Kənd təsərrüfatında yeni dövr!

## Aqrar hədəf güclü istehsal və rəqabətli bazara əsaslanır

Maliyyə naziri Sahil Babayev Milli Məclisin iyunun 30-da keçirilən plenar iclasda "2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsi zamanı bildirib ki, kənd təsərrüfatı sektoru qeyri-neft sektorunun prioritet sahələrindən biri qismində çıxış edir. Onun sözlərinə görə, hər il dövlət büdcəsinin qeyd edilən sahəyə subsidiya, güzəşt və digər dəstək alətləri vasitəsilə əhəmiyyətli dövlət dəstəyi göstərilir.

Nazir qeyd edib ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən 2026-cı ilin 25 may tarixli sərəncamla "Kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilib.

"Sözügedən Dövlət Proqramı ölkənin aqrar siyasətində yeni inkişaf mərhələsinin əsas strateji sənədlərindən biridir. Dövlət Proqramının maliyyələşdirilməsi məqsədilə 2026-2030-cu illərdə dövlət büdcəsindən 2 milyard manata yaxın vəsaitin xərclənməsi nəzərdə tutulur", - deyə nazir bildirib.

**Sahibkarlar üçün yeni fürsətlər açılır**

Mövzunu "Yeni Azərbaycan"a şərh edən iqtisadçı Fuad İbrahimov bildirib ki, kənd təsərrüfatının qeyri-neft sektorunun aparıcı istiqamətlərindən biri kimi müəyyənləşdirilməsi və bu sahəyə dövlət tərəfindən uzunmüddətli maliyyə dəstəyinin göstərilməsi, 2026-2030-cu illəri əhatə edən Dövlət Proqramı çərçivəsində təxminən 2 milyard manat həcmində vəsaitin ayrılmasının nəzərdə tutulması ölkəmizdə kənd təsərrüfatının inkişafı üçün mühüm zəmin yaradıb.

İqtisadçı qeyd edib ki, bütün bu addımlar yalnız aqrar istehsalın genişləndirilməsi baxımından deyil, həm də azad sahibkarlığın inkişafı, rəqabət mühitinin dərinləşdirilməsi, özəl təşəbbüslərin stimullaşdırılması və liberal iqtisadi münasibətlərin daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyan strateji yanaşma kimi qiymətləndirilməlidir:

"Liberal iqtisadiyyatın əsas prinsiplərindən biri dövlətin bazar iştirakçıları üçün əlverişli hüquqi və institusional mühit formalaşdırması, lakin iqtisadi fəaliyyətin əsas hərəkətverici qüvvəsinin özəl sektor və sahibkarlıq təşəbbüsləri olmasıdır. Məhz kənd təsərrüfatı sektorunda subsidiyalar, güzəştli maliyyələşdirmə mexanizmləri, vergi stimulları, kənd təsərrüfatı sığortası, innovativ texnologiyaların tətbiqinin təşviqi və infrastruktur layihələrinin həyata keçirilməsi fermerlərin, aqrar müəssisələrin və kənd yerlərində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin bazar iqtisadiyyatının tələblərinə uyğun şəkildə inkişaf etməsinə, istehsal potensialını artırmasına və daxili bazarla yanaşı, xarici bazarlarda da rəqabət qabiliyyətini gücləndirməsinə geniş imkanlar yaradır.

Dövlət tərəfindən ayrılan maliyyə



resurslarının əsas məqsədi bazar mexanizmlərini əvəz etmək deyil, əksinə, özəl investisiyaların cəlb olunmasını sürətləndirmək, yeni biznes təşəbbüslərinin yaranmasını təşviq etməkdir. Eyni zamanda əsas məqsəd kənd yerlərində məşğulluğu artırmaq, istehsal zəncirinin bütün mərhələlərində əlavə dəyərin formalaşdırılmasını təmin etmək və sahibkarların fəaliyyət risklərini azaltmaqla onların daha cəsarətli investisiya qərarları qəbul etməsinə şərait yaratmaqdan ibarətdir ki, bu da liberal iqtisadi modelin əsas xüsusiyyətlərindən biri hesab olunur".

**Aqrar siyasətin yeni üfüqləri**

F.İbrahimovun sözlərinə görə, xüsusilə kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrinin vahid inkişaf strategiyası çərçivəsində həyata keçiriləcək tədbirlər innovasiya əsaslı istehsalın genişlənməsinə, rəqəmsal texnologiyaların tətbiqinə, məhsuldarlığın yüksəldilməsinə, ixracyönümlü istehsalın artırılmasına şərait yaradır: "Bundan başqa, sözügedən tədbirlər aqrar biznes mühitinin daha da liberallaşdırılmasına xidmət etməklə yanaşı, özəl sektorun iqtisadi inkişaf prosesində aparıcı rolunu gücləndirərək, dövlət və biznes arasında səmərəli tərəfdaşlıq modelini möhkəmləndirir və regionların sosial-iqtisadi inkişafına mühüm töhfə verir.

Azad sahibkarlığın inkişaf etdiyi iqtisadi sistemlərdə dövlətin əsas vəzifəsi bazar iştirakçıları üçün bərabər imkanlar yaratmaq, sağlam rəqabət mühitini qorumaq, mülkiyyət hüququnun etibarlı müdafiəsini təmin etməkdir. Digər məqsədlərdən biri sahibkarların maliyyə resurslarına çıxışını asanlaşdırmaqdan ibarət olduğuna görə, kənd təsərrüfatına yönəldilən uzunmüddətli dövlət dəstəyi yalnız cari istehsal göstəricilərinin yaxşılaşdırılmasına deyil, həm də dayanıqlı iqtisadi artımın formalaşdırılmasına, qeyri-neft sektorunun şaxələndirilməsinə, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, kənd yerlərində rifahın yüksəldilməsinə və özəl sektorun milli iqtisadiyyatın aparıcı inkişaf lokomotivinə çevrilməsinə xidmət edən mühüm iqtisadi alət kimi çıxış edir.

Nəticə etibarilə, kənd təsərrüfatının inkişafına yönəldilən genişmiqyaslı dövlət investisiyaları yalnız büdcə xərcləri kimi deyil, gələcəkdə daha güclü, rəqabətqabiliyyətli və ixracyönümlü özəl sektorun formalaşdırılmasına xidmət edən strateji investisiya kimi qiymətləndirilməlidir. Bu proses isə azad sahibkarlığın genişləndirilməsi, liberal iqtisadi münasibətlərin dərinləşdirilməsi, innovativ biznes modellərinin təşviqi və ölkənin uzunmüddətli iqtisadi dayanıqlığının təmin olunması baxımından mühüm inkişaf mərhələsi hesab edilməlidir".

***Yeganə BAYRAMOVA***

# Avropa dəhşətli istilərin cəngində

Dünya güclü sənaye inkişafının mənfi nəticələri ilə yanaşı, mənfi təsirlərini də hiss etməkdədir. Söhbət ilk növbədə qlobal istiləşmənin yaratdığı fəsadlardan, insanların həyatına gətirdiyi çətinliklərdən gedir. BMT-nin yaydığı hesabatda planetin temperaturunun sənaye dövründən əvvəlki səviyyədən artıq 1,4°C ilə 1,45°C arasında isindiyini və iqlim tarazlığının bütün müşahidə tarixində ən pis vəziyyətdə olduğu bildirilir. Hesabata əsasən, 2015-2025-ci illər tarixin ən isti 11 ili kimi qeydə alınıb. 2026-2030-cu illərdə isə qlobal illik temperaturun sənayeləşmədən əvvəlki dövrlə müqayisədə 1,3°C ilə 1,9°C arasında dəyişəcəyi proqnozlaşdırılır.

Qlobal istiləşmədən, demək olar ki, dünyanın bütün regionları təsirlənirlər. Hazırda ən kritik vəziyyət isə Avropa qitəsində hökm sürür. Ayrı-ayrı ölkələr sözün əsl mənasında dəhşətli istilərin cəngində qalıblar.

**Avropada temperaturun qeyri-adi artması - insan faktoru əsas amillərdən biridir**

İlk baxışda "qoca qitə"də temperaturun hədsiz yüksəlməsi təbiət hadisəsi kimi görünə bilər. Lakin aparılan tədqiqatlardan məlum olur ki, qlobal istiləşməni sürətləndirən əsas faktorlardan biri qismində məhz insan amili çıxış edir.

Avropadakı mövcud ekstremal istilik yalnız təbii hava proseslərinin deyil, həm də insanın yaratdığı iqlim dəyişikliyinin nəticəsidir. Bu nəticəyə "World Weather Attribution" beynəlxalq şəbəkəsinin tədqiqatçıları gəliblər.

Hesabatda 1976-2026-cı illərdə Qərbi və Mərkəzi Avropa ölkələrində ən isti gün və gecələr təhlil edilib. Müəyyən olunub ki, bu gün orta qlobal temperatur sənaye dövründən əvvəlki səviyyədən təxminən 1,4 C yüksəkdir. 2003-cü ildə aşma 0,8°C, 1976-cı ildə isə yalnız 0,3°C idi.

Tədqiqatla tanış olan Danimarka Meteorologiya İnstitutunun iqlimşünası Martin Olesenin sözlərinə görə, iş yüksək elmi səviyyədə aparılıb və orta qlobal temperaturun artmasının ekstremal istilik dalğaları ehtimalını əhəmiyyətli dərəcədə artırdığını təsdiqləyir. Onun sözlərinə görə, hələ bir neçə onilliklər əvvəl bu cür hava hadisələri praktik olaraq qeyri-mümkün hesab olunurdu, lakin bu gün "qeyri-mümkün mümkün oldu".

Araşdırmaya görə, Avropanın 1540-cı ildən bəri təxminən 70 min insanın həyatına son qoyan ən güclü istilik dalğasını yaşadığı 2003-cü ildə belə yüksək gecə temperaturları ehtimalı bu gün ilə müqayisədə 100 dəfə, gündüz temperaturu isə 10 dəfə aşağı idi. Bundan əlavə, mövcud istilik dalğası 1976-cı ildə baş versəydi, temperatur təxminən 3,5°C, 2003-cü ildə isə təxminən 2°C aşağı olardı.

Daha əvvəl "Nature Medicine" jurnalında dərc olunan elmi araşdırmaların məlumatına görə, 2022-ci ildə istilik dalğaları Avropada 61 mindən çox, 2023-cü ildə isə 47 mindən çox ölümə səbəb olub. Alimlər xəbərdarlıq edirlər ki, mövcud tendensiya davam edərsə, ekstremal temperatur hadisələri getdikcə daha tez-tez baş verəcək və insanların sağlamlığı üçün daha çox təhlükə





yaradacaq.

**İtaliya və Balkanlarda qırmızı təhlükə xəbərdarlığı**

Bazar ertəsi İtaliya və Balkan ölkələri yüzlərlə əlavə ölüm halına səbəb olan və bütün qitədə gündəlik həyatı pozan rekord istilərin təsirini hiss ediblər. "Reuters" agentliyinin yazdığına görə, İtaliyada şimaldakı Bolzanodan Siciliya adasının cənubundakı Palermoyadək 22 şəhərdə yüksək temperaturla əlaqədar qırmızı təhlükə səviyyəsi elan olunub.

Xorvatiyada meteorologiya xidməti bazar ertəsi paytaxt Zaqreb, eləcə də Split və Dubrovnik kimi turizm şəhərləri üçün qırmızı təhlükə səviyyəsi elan edib. Dörd təyyarənin dəstəyi ilə onlarla yanğınsöndürən Adriatik dənizində, Splitdən təxminən 55 kilometr cənub-qərbdə yerləşən Vis turizm adasında şam meşələrini bürümüş meşə yanğınının söndürülməsi istiqamətində mübarizə aparıb.

Qonşu Serbiyada Dövlət Hidrometeorologiya Xidməti havanın temperaturun 39 dərəcə Selsiyə çatacağı barədə xəbərdarlıq edib.

Albaniyada ötən həftəsonu ölkənin cənubundakı Klos kəndi yaxınlığında hektarlarla ərazidəki kolluq və zeytun bağlarını məhv edən meşə yanğını lokallaşdırılıb.

Alimlər bildiriblər ki, iyunun 20-dən başlayan isti hava dalğası Avropada indiyədək qeydə alınmış ən güclü istilər olub. Nəticədə, elektrik təchizatı pozulub, infrastruktur zədələnib və səhiyyə sistemi həddindən artıq yüklənib.

Alimlərin fikrincə, insan fəaliyyəti nəticəsində yaranan iqlim dəyişikliyi olmasaydı, belə bir isti hava dalğasının baş verməsi "praktiki olaraq mümkün olmazdı". Belə ki, bu həftə gecə temperaturunun yüksəlməsi ehtimalı cəmi iyirmi il əvvəllə müqayisədə 100 dəfə çoxdur.

İtaliya Meteorologiya Cəmiyyətinin prezidenti Luka Merkallinin sözlərinə görə, iyulun 5-6-da temperaturun yenidən kəskin yüksələcəyi gözlənilir.

"Güclü istilər səbəbindən meşə yanğınları riski artır. Bununla yanaşı, çoxsaylı leysan yağışları da müşahidə olunur ki, bu da təbii olaraq həmin riski azaldır", - deyə o əlavə edib. O qeyd edib ki, leysan yağışları çox lokal xarakter daşıdığı üçün yağıntının miqdarı müxtəlif ərazilərdə əhəmiyyətli dərəcədə fərqlənə bilər.

Polisin məlumatına görə, bazar günü günorta saatlarında Kiprdə qızmar günəş altında qalmış avtomobildə 8 və 10 yaşlı, Bolqarıstandan olan iki oğlan uşağının meyiti aşkarlanıb. Hazırda Kiprdə havanın temperaturu təxminən 38 dərəcə Selsi təşkil edir ki, bu da Şərqi Aralıq dənizində yerləşən ada üçün ilin bu dövründə anomal istilər hesab olunur.

Bazar günü Varşava yaxınlığındakı Marki şəhərində keçirilən "Poland Bike Marathon" seriyasının yarışları zamanı 30 və 71 yaşlı iki velosipedçi həlak olub. Həmin gün Polşada havanın temperaturu 40,5 dərəcə Selsiyə çataraq yeni rekord maksimum göstərici qeydə alınıb.

**İsveçrədə buzlaqlar sürətlə əriyir**

İsveçrədə buzlaqların qışda yığılan bütün qar və buzlarının iyun ayının sonuna qədər itiriləcəyi gözlənilir ki, bu da ölkənin tarixində ikinci ən erkən buzlaq itkisi günü olacaq. Ekspertlər bildirirlər ki, güclü istilik dalğası ərimə prosesini sürətləndirir.

"Swissinfo" agentliyi xəbər verir ki, adətən avqust ayında baş verən qar və buz əriməsi aylarla davam edən əlverişsiz hava şəraiti və davamlı yüksək temperatur səbəbindən qeyri-adi dərəcədə tez baş verir. Vəziyyəti dəyərləndirən iqlimşünas Mattias Huss bildirib ki, durum həqiqətən müstəsnadır. Yalnız 2022-ci ildə, bütün buzlaqların əriməsi rekordları qırıldıqda ərimə günü daha tez gəlib. O, davam edən isti hava dalğasının Alp dağlarının ən böyük buzlağı olan Böyük Aletş buzlağının qarını sürətlə əritdiyini bildirib.

İqlimşünas İsveçrə buzlaqlarının hazırda ərimə sularını hər altı saniyədə Olimpiya ölçülü üzgüçülük hovuzunu doldurmağa bərabər sürətlə itirdiyini deyib və əlavə edib ki, erkən mərhələ yalnız mövcud isti dalğasının nəticəsi deyil: "Yenə də çox az qarın yağdığı qış keçirdik və buzlaqlar zəif qoruyucu təbəqə ilə qaldı. May ayının əvvəlində İsveçrə ovalığında yay aylarına bənzər temperatur 30 dərəcə Selsiyə çatdı. İyul və avqust aylarında yaşaya biləcəyimiz bütün yüksək temperaturlar birbaşa uzunmüddətli buzlaq itkisinə səbəb olacaq. Bu il çoxlu miqdarda buz itirəcəyik", - deyə Mattias Huss vurğulaayıb.

**Parisdə 100-dən çox ölüm hadisəsi**

Qitədə istiləşmənin sürətlə artmasından ən çox təsirlənən ölkələrdən biri Fransadır. Bir neçə gün bundan əvvəl paytaxt Parisdə anomal istilər səbəbindən 109 nəfərin öldüyü bildirilir. Yerli medianın yazdığına görə, bu siyahıya yalnız evlərində və ictimai yerlərdə ölənlər aiddir, qocalar evlərində və xəstəxanalarda ölüm halları bura daxil deyil.

Anomal istilər səbəbindən Parisdə xəstəxanalar "təcili yardım planı"nı aktivləşdirib. Fransada fövqəladə hallar zamanı səhiyyə müəssisələrində aktivləşdirilən bu plana məzuniyyətdə olan işçilərin iş yerinə çağırılması, çarpayı tutumunun artırılması və təcili olmayan əməliyyatların təxirə salınması kimi addımlar daxildir.

Paris və ətraf ərazilər də daxil olmaqla 37 əyalətdə qırmızı, 48 əyalətdə isə anomal istilər səbəbindən narıncı həyəcan siqnalı verilib.

Eyni zamanda, isti hava dalğası enerji istehsalına da təsir göstərib. EDF şirkəti "Golfech, "Bugey" və "Nogent-sur-Seine" stansiyalarında yerləşən üç nüvə reaktorunun fəaliyyətini müvəqqəti dayandırıb. Bundan başqa, "Saint-Alban" stansiyasında da istehsalın azaldılması qərara alınıb.

Fransada nüvə stansiyaları soyutma sistemi üçün çay və ya çay axınlarından istifadə edir. Güclü istilər zamanı bu suların temperaturu artdığından, reaktorların fəaliyyəti məhdudlaşdırıla və ya tam dayandırıla bilər. Məqsəd isti suyun yenidən çaylara buraxılması nəticəsində ekosistemə zərərin qarşısını almaqdır.

Ölkədə fəaliyyət göstərən 57 nüvə reaktorunun işi ciddi ekoloji qaydalarla tənzimlənir. "Golfech" stansiyasında çayın temperaturu 28°C-ni keçməməlidir. "Nogent-sur-Seine" stansiyasında isə Sena çayının temperatur artımı yuxarı və aşağı axın arasında 3°C-dən çox olmamalı və orta temperatur 28°C-ni keçməməlidir.

**Almaniya tarixinin ən isti günləri**

İyunun üçüncü ongünlüyündə Almaniyada da gecə və gündüz temperaturu üzrə rekord göstəricilər qeydə alınıb. Saksoniya-Anhalt əyalətinin Yerixover Land rayonundakı Drevits meteoroloji stansiyasında 41,5 dərəcə qeydə alınıb ki, bu da Almaniya tarixində indiyədək müşahidə olunan ən yüksək hava temperaturudur.

Almaniyada da rekord istilər fəsadlarla nəticələnib. Belə ki, həftəsonu ölkə çimərliklərində azı 26 nəfər həyatını itirib və ya itkin düşüb.

Eləcə də ölkənin bir sıra bölgələrində davam edən isti və quraq hava şəraiti bəzi ərazilərdə meşə yanğınlarının baş verməsinə səbəb olub.

***Mübariz FEYİZLİ***

GÜVƏN AUDİT MMC

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

VÖEN № 1008141941 ; İcazə № AT/271 ; 24.05.2023-cü il ; mail: guven.audit@gmail.com
Hüquqi Ünvan: AZ1108, Bakı şəhəri, Binəqədi rayonu, Əcəmi Naxçıvani küçəsi, ev 33B, mənzil .

MÜSTƏQİL AUDİTOR HESABATI

"DALĞA-94" MMC-nin Səhmdarına və Rəhbərliyinə:

**Şərti rəy**

Biz "DALĞA-94" Məhdud Məsuliyyətli Cəmiyyətinin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə, əsas mühasibat prinsiplərinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan konsolidə edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, "Şərti rəyin bildirilməsi üçün əsas" bəndində açıqlanan məsələlərin mümkün təsirləri istisna olmaqla, hazırkı maliyyə hesabatları 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, və həmin tarixdə bitən illər üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini konsolidə edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirir.

**Şərti rəyin bildirilməsi üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Təşkilatdan asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Biz 31 dekabr 2025-ci il tarixinə mal-material ehtiyatlarının fiziki inventarizasiyasını müşahidə edə bilmədik. Biz digər audit prosedurlarını tətbiq etməklə 31 dekabr 2025-ci il tarixinə mal-material ehtiyatlarının kəmiyyətinə dair əminlik əldə edə bilmədik. Mal-material ehtiyatlarının qalıqları maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətinin müəyyən edilməsi prosesinin bir hissəsi olduğu üçün biz mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda göstərilmiş 31 dekabr 2025-ci il tarixində bitən il üzrə mənfəətlə bağlı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatda göstərilmiş əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitlərinin hərəkəti ilə bağlı hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilmədik.

Rəhbərliyin və maliyyə hesabatlarının idarə edilməsi üzrə məsul tərəflərin öhdəlikləri

Rəhbərlik bu maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, hesabatlarının saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatları hazırlayarkən rəhbərlik fəaliyyətin fasiləsizliyi prinsipi əsasında işini davam etdirmə potensialını qiymətləndirmək, müvafiq olduqda daimilik prinsipi ilə bağlı məsələləri açıqlamaq və rəhbərlik ləğv etmək və ya fəaliyyətini dayandırmaq istəyənədək, yaxud bunu etmək üçün real seçimi olmayanadək hesabatlılığın fəaliyyətin fasiləsizliyi prinsipi istifadə etmək üzrə məsuliyyət daşıyır.

Rəhbərlik Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhvlərdən dolayı əhəmiyyətli təhriflərin mövcud olmadığına təminat verməkvə rəyimizi əks etdirən auditor hesabatı təqdim etməkdir. Təminat olduqca önəmli olsa da, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit yoxlamasının hər zaman mövcud olan təhrifləri aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlərdən irəli gələ və bu maliyyə hesabatları əsasında verilmiş iqtisadi qərarlara ciddi təsir göstərə bilər.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

29 iyun 2026-cı il

Bakı, Azərbaycan Respublikası

" GÜVƏN AUDİT " MMC

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti GÜVƏN AUDİT Limited Liability Company Azerbaijan Republic

*"DALĞA-94" MMC*
*Konsolidə edilmiş Maliyyə vəziyyəti haqqında hesabat*
*31 dekabr 2025-ci il tarixinə*

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| AKTİVLƏR | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Bina, qurğular və avadanlıqlar | 6 | 1,457,005 | 1,226,491 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **1,457,005** | **1,226,491** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | 7 | 9,943,201 | 13,646,784 |
| Qısamüddətli debitor borcları | 8 | 136,038 | 1,379,058 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 9 | 27,952 | 233,766 |
| Sair qısamüddətli aktivlər | 10 | 232,684 | 501,590 |
| **Cəmi qısamüddətli aktivlər** | | **10,339,874** | **15,761,197** |
| **CƏMİ AKTİVLƏR** | | **11,796,879** | **16,987,689** |
| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | | 12 | 12 |
| Kapital ehtiyatları | | - | 786,215 |
| Bölüşdürülməmiş mənfəət və ya zərər | | 482,609 | 461,045 |
| **CƏMİ KAPİTAL** | | **482,621** | **1,247,272** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | - | - |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Vergi və sair məcburi ödənişlər | | 18,809 | |
| Qısamüddətli kreditor borcları | 11 | 1,237,873 | |
| Sair qısamüddətli öhdəliklər | 12 | 10,057,577 | 15,740,416 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | 11,314,258 | 15,740,416 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **11,314,258** | **15,740,416** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **11,796,879** | **16,987,689** |

"Dalğa-94" məhdud məsuliyyətli cəmiyyəti

Direktor

Baş mühasib

*"DALĞA-94" MMC*
*Konsolidə edilmiş Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat*
*31 dekabr 2025-ci il tarixinə bitən il üzrə*

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində bitən il üzrə | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Gəlir | 13 | 5,811,550 | 8,006,286 |
| Satışların maya dəyəri | 14 | (3,373,147) | (6,615,444) |
| **Xalis mənfəət və ya zərər** | | **2,438,404** | **1.390.842** |
| İnzibati xərclər | 14 | (2,428,248) | (1.616.763) |
| Digər gəlirlər | 13 | 16,800 | 42,063 |
| **Əməliyyat mənfəəti və ya zərəri** | | **(2,411,448)** | **(1.574.700)** |
| **Vergidən əvvəlki mənfəət və ya zərər** | | **26,955** | **(183.858)** |
| Mənfəət vergisi xərci | | (5,391) | - |
| **İl üzrə xalis mənfəət və ya zərər** | | **21,564** | **(183.858)** |
| Digər məcmu gəlirlər | | - | - |
| **İl üzrə cəmi məcmu mənfəət və ya zərə** | | **21,564** | (183.858) |

"Dalğa-94" məhdud məsuliyyətli cəmiyyəti

Direktor

Baş mühasib

*"DALĞA-94" MMC*
*Konsolidə edilmiş Kapitalda dəyişikliklər haqqında hesabat*
*31 dekabr 2025-ci il tarixinə il üzrə*

*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəətvə ya zərər | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **12** | **786.215** | **461.045** | **1.247.272** |
| İl üzrə cəmi məcmu mənfəət və ya zərər | - | - | 21,564 | **21,564** |
| Geri alınmış kapital üzrə əməliyyatlar | | (786.215) | | **(786.215)** |
| **31 dekabr 2025-ci il tarixinə qalıq** | **12** | **-** | **482.609** | **482.621** |

"Dalğa-94" məhdud məsuliyyətli cəmiyyəti

Direktor

Baş mühasib

*"DALĞA-94" MMC*
*Konsolidə edilmiş Pul vəsaitlərinin hərəkəti haqqında hesabat*
*31 dekabr 2025-ci il tarixinə il üzrə*

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində bitən il üzrə | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| **Hesabat dövründə xalis mənfəət və ya zərər** | | **21,564** | **(183.858)** |
| *Düzəlişlər:* | | | |
| Mənfəət vergisi üzrə xərclər | | 5,391 | - |
| Amortizasiya xərcləri | | - | - |
| Faiz xərcləri (gəlirləri) | | - | 26.311 |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | **26,955** | **(157.547)** |
| **Dövriyyə vəsaitlərində dəyişikliklər** | | | |
| Ehtiyatlarda dəyişiklik | | 3,703,583 | 4.132.258 |
| Əməliyyat debitor borclarında dəyişiklik | | 1,243,020 | (1.379.058) |
| Sair qısamüddətli aktivlərdə dəyişiklik | | 268,906 | (501.590) |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | 18,809 | |
| Əməliyyat kreditor borclarının artması (azalması) | | 1,237,873 | |
| Sair qısamüddətli öhdəliklərində dəyişiklik | | (5,682,840) | (1.190.621) |
| Ödənilmiş faizlər | | - | (26.311) |
| Ödənilmiş mənfəət vergisi | | (5,391) | - |
| **Əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | **810,914** | **877.132** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | | (230,513) | (153.458) |
| **İnvestisiya fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | **(230,513)** | **(153.458)** |
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Nizamnamə kapitalına daxilolma | | | - |
| Kapital ehtiyyatı üzrə xaricolma | | (786,215) | - |
| Bank kreditindən daxilolma | | - | - |
| Bank kreditindən xaricolma | | - | (554.189) |
| **Maliyyə fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | **(786,215)** | **(554.189)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis dəyişiklik** | | **(205,815)** | **169,484** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin əvvəlinə** | | **233,766** | **64.282** |
| Xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | - | - |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin sonuna** | | **27,951** | **233.766** |

"Dalğa-94" məhdud məsuliyyətli cəmiyyəti

Direktor

Baş mühasib

# Orta Dəhlizlə yükdaşımaların həcmi son altı ildə 5 dəfə böyüyüb



Qazaxıstan güclü aviasiya yanacağı təchizatı infrastrukturu yaratmalı, regionun aparıcı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilməlidir. Bu barədə Prezident Kasım-Jomart Tokayev parlament palatalarının birgə iclasında bildirib. Qazaxıstan Prezidenti Aparatının məlumatına istinadla xəbər verir ki, dövlət başçısı ölkənin regionun aparıcı neft və qaz istehsalçısı kimi güclü aviasiya yanacağı təchizatı infrastrukturu yaratmağa borclu olduğunu qeyd edib. Prezident, həmçinin Avropa İttifaqı liderləri ilə danışıqlar zamanı Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafına xüsusi diqqət yetirildiyi Brüsseldə son səfərini xatırladıb. Kasım-Jomart Tokayevin sözlərinə görə, Orta Dəhliz boyunca yükdaşımaları son altı ildə 5 dəfə artaraq ildə 4 milyon tonu keçib. Bu, əsasən dəniz nəqliyyatının inkişafı və təkmilləşdirilmiş liman infrastrukturu sayəsində mümkün olub. Dövlət başçısı vurğulayıb ki, parlamentin qanunvericilik dəstəyi sənayenin inkişafına güclü təkan verib. 2023-cü ildən bəri sənayenin hərtərəfli inkişafına yönəlmiş 8 qanun qəbul edilib və bir sıra beynəlxalq müqavilələr təsdiqlənib. "Əminəm ki, ardıcıl addımlar atan Qazaxıstan özünü etibarlı enerji donoru kimi təsdiqləyəcək, regionun aparıcı nəqliyyat və logistika mərkəzlərindən birinə çevriləcək", - deyə Prezident bildirib.

Kasım-Jomart Tokayev hökumətin bu sahəyə müstəsna diqqət yetirməli olduğunu qeyd edib. O əlavə edib ki, ölkənin qarşısında daha bir vacib və təxirəsalınmaz vəzifə durur: genişmiqyaslı tikinti.

Prezident dəmir yolları və magistral yollarının, hava limanlarının, qatar stansiyalarının, böyük su təmizləyici və təchizatı qurğularının, istehsal və sənaye zavodlarının, şəhər binalarının və digər obyektlərin sürətlə inşasının vacibliyini vurğulayıb.

# "Yaşıl enerji"nin qlobal tələbatda payı artır



Ötən il dünyada aşağıkarbonlu enerji mənbələri enerji tələbatındakı artımın qarşılanmasında ilk dəfə lider olub. Bu barədə Enerji İnstitutunun (Energy Institute) "Ember", "Kearney" və KPMG şirkətləri ilə birgə hazırladığı "Dünya Enerji Statistikası" hesabatında bildirilir. Hesabata əsasən, qlobal enerji tələbatı ötən il 1,7 faiz artaraq təxminən 166,7 trilyon kilovat-saata çatıb və ardıcıl ikinci il rekord səviyyə qeydə alınıb. Ənənəvi yanacağın enerji istehlakındakı payı isə 86,2 faiz olmaqla indiyədək ən aşağı səviyyəyə enib.

Enerji səmərəliliyi sahəsində əldə olunan irəliləyiş 2 faiz təşkil edib. Bu göstərici qlobal hədəf olan 4 faizdən xeyli aşağıdır. Ənənəvi yanacaqlardan istifadənin davam etməsi nəticəsində qlobal karbon emissiyaları ötən il 1,1 faiz artıb. Çin və Hindistanda emissiyalar müvafiq olaraq 0,3 və 0,9 faiz artaraq qlobal orta göstəricidən aşağı qalıb. ABŞ-da isə emissiyalar 3,2 faiz artaraq rekord səviyyəyə çatıb ki, buna da kömür elektrik stansiyalarında elektrik istehsalının 13 faiz artması təsir göstərib.

Hesabatda qeyd olunur ki, 2025-ci ildə qlobal elektrik enerjisinə tələbat illik müqayisədə 3 faiz artaraq ümumi enerji tələbatını üstələyib. Elektromobillərin və süni intellekt texnologiyalarının geniş yayılması tələbatın əsas səbəbləri olub. Çin elektrik enerjisinə tələbatın ən sürətlə artdığı ölkə olub. Belə ki, Çində bu göstərici 5 faiz artıb.

Ötən il təmiz enerji mənbələri enerji tələbatındakı artımın təxminən 40 faizini qarşılayaraq ən böyük paya sahib olub. Beləliklə, COVID-19 pandemiyası dövrü istisna olmaqla, aşağıkarbonlu mənbələrdən enerji təchizatında yeni dönüş nöqtəsi yaranıb. Külək, Günəş, hidroenerji və nüvə enerjisi elektrik istehsalında kömürü geridə qoyaraq əsas mənbə olub.

Külək və Günəş enerjisindən elektrik istehsalı isə ötən il illik müqayisədə 18 faiz artaraq ən yüksək artım tempini nümayiş etdirib.



# Aİ və Çin ticarət münasibətlərini nizamlamaq üçün yeni dialoq platforması yaradıb

Brüssel və Pekin ticarət sahəsində artan gərginliyi azaltmaq məqsədilə yeni Ticarət və İnvestisiya Məsləhətləşmələri (TIC) platformasının yaradılması barədə razılığa gəliblər. Yeni mexanizm tərəflər arasında ticarət və investisiya siyasəti, ixrac nəzarəti, əqli mülkiyyət hüquqları və Ümumdünya Ticarət Təşkilatının islahatı ilə bağlı məsələlərin müntəzəm müzakirəsini nəzərdə tutur.

Avropa İttifaqının ticarət üzrə komissarı Maroş Şefçoviç bildirib ki, məqsəd oktyabr ayınadək konkret nəticələr əldə etməkdir. Tərəflər, həmçinin Çin məhsullarının Aİ bazarına mümkün kəskin axınını izləmək üçün birgə monitorinq mexanizmi yaratmağa razılaşıblar. Bu addım Aİ-nin Çinlə ticarət balansındakı rekord kəsir və iqtisadi münasibətlərdə artan fikir ayrılıqları fonunda atılıb.

Çin isə nadir torpaq elementlərinin ixracına tətbiq olunan mövcud məhdudiyyətlərin Avropa tədarük zəncirlərinə mane olmayacağına dair təminat verib.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Qarpız alarkən bu səhvləri etməyin!

## Mütəxəssisdən vacib tövsiyələr...



Yayda ən çox istehlak edilən və süfrələrin vazkeçilməz məhsullarından biri qarpız və yemişdir. Azərbaycanda bu məhsulların təbii yetişmə dövrü adətən iyulun sonu və avqust ayına təsadüf edir. Ancaq daha isti iqlimə malik bəzi ölkələrdə qarpız və yemiş daha erkən yetişdiyindən həmin məhsullar mövsüm başlamazdan əvvəl də ölkə bazarlarında satışa çıxarılır.

Ölkəmizdə qarpız satışının canlanması adətən iyun ayında müşahidə olunur. Hətta mütəxəssislər iyunda yeyilən qarpızın belə insan səhhəti üçün zərərli olduğunu bildirirdilər. Bununla belə, vaxtından əvvəl yetişdirilən qarpızların istehlakının sağlamlıq üçün arzuolunmaz nəticələr yarada biləcəyi dəfələrlə vurğulanıb. Maraqlıdır ki, əvvəlki illərlə müqayisədə bu il bazarlarda qarpızlara daha erkən rast gəlinir.

Bundan əlavə, aprel ayından çiyələk, alça, mayda gilas, gilənar kimi giləmeyvələr də satışa çıxarılıb. Baxmayaraq ki, bu meyvələrin hərəsinin öz mövsümü olmalıdır.

Mütəxəssislər də hər meyvənin öz mövsümündə yeyilməsini məsləhət görür və vaxtından tez bazara çıxarılan meyvələrin kimyəvi dərmanlardan istifadə edilərək tez yetişdirildiyini bildirirlər. Bunun da insan orqanizminə ziyanlı olduğu danılmazdır.

**Hibrid qarpızlar**

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən qida təhlükəsizliyi üzrə ekspert Məhsəti Hüseynova bildirib ki, xaricdən idxal olunan qarpızlar hibrid qarpızlardır. Çünki vaxtından tez yetişir: “Azərbaycanda qarpız mövsümü avqustun axırı və ya sentyabr ayının əvvəlləridir. Lakin xaricdə hibrid toxumları çox yayıldığı üçün vaxtından əvvəl satılan qarpızlar yerli deyil. Artıq Azərbaycanda da hibrid toxumlarının satışına başlanılıb. Təəssüflər olsun ki, bunu tərifləyən mütəxəssislər də var. Təbiətin qanunlarını heç vaxt pozmaq olmaz. Əgər təbiət bu qarpızı avqust və ya sentyabrda iqlim şəraitinə görə yetişdirirsə, deməli o vaxtda da yemək lazımdır. Məsələn, İran bizdən isti ölkə olduğu üçün orada iyunda qarpız yetişə bilər. Amma bu o demək deyil ki, biz onu vaxtından əvvəl yeməliyik. Kənardan gələn meyvə-tərəvəzin bizə heç bir faydası yoxdur. Çünki bunlar bizim genetik kodlarımıza daxil deyil. Yəni genetik kodlara piqmentlər daxildir. Bir sözlə, mövsümündə yeyilməyən meyvənin heç bir faydası yoxdur”.

**Zəhərlənmə riski yüksəkdir...**

Ekspertin sözlərinə görə, hazırda satışda olan qarpızlara gübrənin nə qədər vurulduğunu bilmirik: “Əgər hibrid toxumdursa, gübrədən geniş istifadə olunur. Bu da qarpızın nitrat səviyyəsinin yüksək olduğunun göstəricisidir ki, insanlarda zəhərlənmə yaradır. Yəni immun sistemi zəif olan adam həmin o qarpızdan yesə, zəhərlənmə riski daha yüksəkdir. Ümumiyyətlə, bu işbazlara da yer verən biz özümüzük. Onlara yol açırıq ki, gəlin bunu satın alacağıq. Parnikdə bitən tərəvəzin insana nə xeyri ola bilər ki? Gübrədən geniş istifadə olunduğuna görə, zəhərlənmə halları çox olur. Riskli qidalar yalnız ət mənşəli olmur. Meyvə-tərəvəz də riskli qida qrupuna daxildir”.



M.Hüseynovanın sözlərinə görə, insanlar bilməlidir ki, nitrat və kimyəvi gübrələr insan orqanizmini zəhərləyə bilir. Bu cür vasitələrdən yalnız çox az doza ilə istifadə etmək olar: “Lakin ölkəmizdə həm nitratdan, həm də kimyəvi gübrələrdən normadan artıq istifadə olunur. Ona görə də alıcılara tövsiyə edirəm ki, mümkün qədər bu cür mövsümü olmayan məhsullardan istifadə etməsinlər”.

**Satıcılara aldanmayın...**

Mövsümdən öncə yeyilən qarpızın tərkibindəki maddələrin zəhərləməyə səbəb olduğunu söyləyən ekspert bildirdi ki, xüsusilə həssas yaş qrupundan olan insanlar, yəni uşaqlar, yaşlı, xroniki xəstəliyi olan insanlar, hamilə qadınlar üçün daha təhlükəlidir: “Əgər bu məhsul hansısa bir qida növü ilə qəbul edilərsə, immun sistemi aşağı olan şəxslərdə həmin qidaların bir-biri ilə təsiri nəticəsində zəhərlənmə baş verir. Bu baxımdan da qarpızları mövsümdən əvvəl yemək məsləhət görülmür. Hətta bir çox hallarda satıcılar məhsulun isti ölkələrdən gətirildiyi üçün heç bir zəhərlənməyə səbəb olmayacağını deyirlər. Amma onlara aldanmaq olmaz”.

**Hansı məqamlara diqqət etməliyik?**

Mütəxəssis bildirib ki, həmçinin mövsümündə bitən qarpızı seçmək üçün bəzi məqamlara diqqət etməliyik: “Olğunlaşmamış, yəni yetişməmiş qarpızı satmaq düzgün deyil. Bəzi işbazlar avqust-sentyabr aylarında da bu əməllərindən əl çəkmirlər. Qarpızın saplağına baxmaq lazımdır. Əgər saplaq quruyubsa, deməli, onun içi də yetişib. Yox, əgər saplaq yaşıl rəngdədirsə, demək ki, içi yaxşı deyil. Digər məqam isə qarpıza yumruq vuranda şüşə səsi kimi bir səs gəlməlidir. Sanki bu dəqiqə əlimizdə çatlayacaq. Bu qarpızları seçmək daha məqsədəuyğundur”.

***Yeganə BAYRAMOVA***



## Olimpiya Günü qeyd olunub



Dədə Qorqud parkında Milli Olimpiya Komitəsinin təşkilatçılığı ilə Olimpiya Gününə həsr olunmuş tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Olimpiya Gününün tarixi barədə geniş məlumat verilib. Bildirilib ki, Beynəlxalq Olimpiya Komitəsinin təşəbbüsü ilə 1948-ci ildən qeyd olunan bu gün sağlam həyat tərzinin və idmanın təbliğinə xidmət edir. Tədbirdə 1952-1992-ci illərdə Olimpiya Oyunlarında medal qazanmış azərbaycanlı idmançıların uğurlarından bəhs olunub. Daha sonra Olimpiya çempionları Nazim Hüseynov və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxış ediblər.

Nazim Hüseynov Azərbaycan idmançılarının beynəlxalq arenadakı uğurlarından danışaraq, dövlət bayrağının hər zaman yüksəklərdə dalğalanmasını arzulayıb. Çingiz Hüseynzadə isə Olimpiya Gününün idmanın və olimpiya dəyərlərinin təbliği baxımından əhəmiyyətini vurğulayaraq, builki tədbirin sovet dövründə Olimpiya Oyunlarında iştirak etmiş azərbaycanlı idmançılara həsr olunduğunu bildirib.

## Bakıda təşkil olunan UFC turnirini 11 minədək azarkeş izləyib



Milli Gimnastika Arenasında təşkil edilən gecənin əsas döyüşü Azərbaycan təmsilçisi Rafael Fiziyev ilə meksikalı Manuel Torres arasında olub. Görüş təmsilçimizin qələbəsi ilə yekunlaşıb.Azərbaycan təmsilçilərindən Tahir Abdullayev braziliyalı Cefferson Nasimentonu, Fərman Həsənov ABŞ-dan olan Erik Nolanı üstələyib. Nazim Sadıxov isə Mateus Kamiloya (Braziliya) məğlub olub. Qeyd edək ki, Azərbaycanda UFC turniri ilk dəfə ötən il təşkil edilmişdi.

Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən verilən məlumata görə, turnirə maraq ötən illə müqayisədə xeyli artıb. Ümumilikdə, 11 minə yaxın bilet satılıb. Satılan biletlərin təxminən 40 faizə yaxını xarici azarkeşlərin payına düşüb. Turnirə dünyanın 72 ölkəsindən azarkeşlər qatılıb.

## “İnter” Yann Sommer ilə vidalaşıb



İtaliyanın “İnter” komandasında ayrılıq yaşanıb. AZƏRTAC klubun rəsmi saytına istinadən xəbər verir ki, Milan təmsilçisi qapıçısı Yann Sommer ilə vidalaşıb. 37 yaşlı isveçrəli qolkiper ilə başa çatan müqavilənin müddəti uzadılmayıb. Yann Sommer 2023-cü ildən “İnter”də çıxış edirdi. O, bu müddət ərzində 4 kubok qazanıb.

## “Qəbələ” növbəti transferini açıqlayıb




“Qəbələ” yay fasiləsində ikinci transferini reallaşdırıb. Klubdan AZƏRTAC-a verilən məlumata görə, Premyer Liqa təmsilçisi Konqo Demokratik Respublikasından olan Natan Monzanqo ilə 1+1 illik müqavilə bağlayıb. 25 yaşlı mərkəz müdafiəçisinin son klubu “Bravo” (Sloveniya) olub. Futbolçu buna qədər “Şole”, “Amyen”, “Pau”, “Vilfranş” (hamısı Fransa) və “Rizəspor” (Türkiyə) klublarının şərəfini qoruyub. Qeyd edək ki, “Qəbələ” ötən gün kot-d`ivuarlı sol cinah müdafiəçisi Kouya Mabenanı heyətinə qatıb.

## “Gəncə” braziliyalı voleybolçunu transfer edib




“Gəncə” voleybol komandası heyətini gücləndirməyə davam edir. Qərb təmsilçisi braziliyalı voleybolçu Hellen Luvizetti Lakava ilə müqavilə imzalayıb. ABŞ, Kosovo və Kanadada legioner həyatı yaşamış təcrübəli oyunçunun son klubu Fransanın “Pays Viennois” kollektivi olub.

## Sumoçularımız 4 medal qazanıblar



Azərbaycan sumoçuları Şotlandiyanın Stirlinq şəhərində keçirilmiş Avropa çempionatında 1 qızıl və 3 bürünc medal qazanıblar. Apasport.az xəbər verir ki, bunu Azərbaycan Yapon Döyüş Növləri və Mədəniyyəti Assosiasiyası açıqlayıb.

Cavid Yusifov (115 kq) qızıl, Əmrah Şəfiyev (85 kq və mütləq çəki) iki bürünc mükafata sahib çıxıb. Azərbaycan millisi komanda yarışında da bürünc medal qazanıb. Qeyd edək ki, bu il sumo üzrə dünya çempionatı ilk dəfə 17-18 oktyabr tarixlərində Bakıda keçiriləcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5348**
**Sifariş: 844**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova